RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 118 (8434) BAZAR, 21 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV Ermənistana növbəti diplomatik zərbə vurdu

**Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən son sammiti ölkəmiz üçün yalnız Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında əlaqələrin inkişafda olmasının təsdiqi kimi yadda qalmadı. Bu beynəlxalq tədbir həm də Prezident İlham Əliyevin N. Paşinyana və onun timsalında Ermənistana vurduğu növbəti ifşaedici diplomatik zərbə oldu.**

## Azərbaycan - Aİ münasibətləri qarşılıqlı maraqlar əsasında inkişaf edir

Öncə onu qeyd edək ki, indiyədək Azərbaycanla Avropa İttifaqı arasında həyata keçirilən tərəfdaşlığın hər bir aspekti tərəflərin münasibətlərinin qarşılıqlı maraqlar əsasında inkişaf etdiyini göstərir. Siyasi baxımdan əlaqələr yüksək səviyyədədir. Aİ Şurasının prezidenti Donald Tusk Azərbaycanın regiondakı rolunun bu təşkilat tərəfindən yüksək qiymətləndirildiyini bəyan edib. Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq isə Aİ-də Azərbaycanın etibarlı və məsuliyyətli tərəfdaş olduğuna dair konkret rəy formalaşdırıb.

2018-ci ildə Azərbaycanla Aİ arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədi isə rəsmi Bakının həm uğurlu, həm də müstəqil xarici siyasətinin növbəti təsdiqidir. Əməkdaşlığın davamı olaraq münasibətlərdə yeni səhifə açan sənəddə qeyd edildiyi kimi, münasibətlərin daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Aİ tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Bir sıra mühüm məsələlərin yer aldığı sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb. Bütövlükdə, bu sənəd ikitərəfli tərəfdaşlıq əlaqələrinin inkişafı üçün yeni zəmin yaradıb. Ən əsası "Tərəfdaşlıq prioritetləri"ndə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunub.

Hazırda Azərbaycan tək Aİ ilə deyil, həm də bu quruma üzv ölkələrlə də sıx əlaqələrə malikdir. Belə ki, Azərbaycanın bu təşkilatın üzvü olan doqquz ölkə ilə əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi isə həm Azərbaycanın, həm Aİ-nin, həm də bu quruma üzv ölkələrin maraqlarına cavab verir.

## Paşinyan özünü ifşa etdi

İlham Əliyevin Azərbaycanın üzləşdiyi işğalla bağlı faktları diqqətə çatdırması isə sammitdə iştirak edən Ermənistanın baş naziri N.Paşinyanın növbəti dəfə özünü ictimaiyyət qarşısında biabır etməsi ilə nəticələndi. Hər dəfə olduğu kimi, beynəlxalq təşkilatların tədbirlərində söz alıb Prezident İlham Əliyevin fikirlərinə cavab vermək istəyən erməni baş nazir yenə də özü-özünü çıxılmaz vəziyyətə saldı, söhbətə qeyri-peşəkar müdaxiləsi, cılız davranış tərzi, gülünc cavab verməyi ilə təcrübəli dövlət başçıları və siyasətçilər arasında bir daha tamamilə yad biri olduğu təsirini bağışladı.

Ermənistanın baş naziri söhbətə müdaxilə etmək istəyərkən, əslində, özünü ifşa etdi. Bunun ən bariz nümunəsi bədahətən danışmaq qabiliyyəti olmayan Paşinyanın ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunmuş "Naqornıy Karabagh" ifadəsini işlətməsidir. Məlum olduğu kimi, erməni rəsmi təbliğatı Qarabağı qondarma ifadə olan "Artsax" adlandırır. Hansı ki, bu ifadə heç erməni ictimaiyyətində də işlək deyil. Beynəlxalq səviyyədə isə "Naqornıy Karabagh" ifadəsindən istifadə olunur ki, buradakı "Karabagh" Azərbaycan dilində Qarabağ sözünün ingiliscə yazılışıdır. Paşinyan məhz bu sözü işlətməklə Qarabağın Azərbaycan torpağı olduğunu təsdiqlədi və bununla həm də Ermənistanın işğalçılıq siyasətini ifşa etdi.

Eyni zamanda Paşinyanın sammitdəki çıxışı həm də Ermənistan baş nazirinin ingilis dili "səviyyə"sini göstərdi. O, əvvəlcədən hazırlanan çıxışını kağızdan ingilis dilində oxusa da, sonra fikirlərini bu dildə ifadə edə bilmədi.

## İlham ƏLİYEV: "Belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim"

Paşinyan özünü ifşa etməsi ilə həm də növbəti yalana imza atdı. Əslində, burada təəccüblü heç nə yoxdur. Çünki xəstə təfəkkürü məhz yalan və saxtakarlıq üzərində qurulub. Erməni baş nazirin budəfəki yalanı isə Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarı ilə bağlı oldu. Belə ki, Paşinyan yalan danışaraq iddia etdi ki, guya həmin qərarda Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyi barədə fikirlər yer alıb. Onun daha bir "arqumenti" isə Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun ölkəsində qəhrəman kimi qəbul olunması idi.

Ardı 3-cü səh.

# «Sizin rəhbərliyinizlə xalqımız bu bəlaya da qalib gələcək»

Azərbaycan Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindən **Sevinc Alıyeva** yazır: "Hörmətli cənab Prezident, bütün Azərbaycan vətəndaşları kimi, biz də ailəliklə Sizin kimi müdrik rəhbərimizin fəaliyyətini müşahidə edir və səylərinizi yüksək qiymətləndiririk. COVID-19 pandemiyasının ölkəmizə ayaq açdığı andan virusun qarşısını almaq üçün gördüyünüz bütün qabaqlayıcı tədbirlərə və bu gün də apardığınız mübarizəyə görə fəxr edirik. Cənab Prezident, Allahdan Sizə və ailənizə möhkəm cansağlığı diləyir, bizi hər zaman düşündüyünüz və ölkəmizin qayğısına qaldığınız üçün Zati-alinizə təşəkkürümüzü bildirirəm".

Gəncə şəhərindən **Sevinc Kazımova:** "Çox hörmətli cənab Prezident, bu məktubu yazmaqla Sizə - gündən-günə inkişaf edən müstəqil Azərbaycanın Prezidentinə təşəkkürümü bildirirəm və bunu özümə vətəndaşlıq borcu hesab edirəm. Sizin sayənizdə həm ölkəmiz inkişaf edir, həm də insanları narahat edən məsələlər öz həllini tapır. Həmçinin Sizin COVID-19 pandemiyası dövründə etdiyiniz "Biz birlikdə güclüyük!" çağırışınız hər bir vətəndaş kimi, məndə də qürur hissi yaşatdı və məni ruhlandırdı. Əminik ki, Sizin və Birinci vitse-prezidentimiz xanım Mehriban Əliyevanın köməyi sayəsində biz bu pandemiyadan qalib çıxacağıq. Vaxtında atılmış addımlar, gördüyünüz operativ işlər, qəbul etdiyiniz düzgün qərarlar xalqımızın bu epidemiyadan az itkilərlə çıxmasına zəmin yaradır.

Ardı 2-ci səh.

# Avropa Parlamenti faktiki olaraq Prezident İlham Əliyevin dediyi "Qarabağ Azərbaycandır!" sözlərini təkrar edib

Avropa Parlamenti "Avropa Parlamentinin iyun (2020-ci il) sammiti ərəfəsində Aİ Komissiyasına və komissiyanın vitse-prezidenti/Aİ-nin Şərq Tərəfdaşlığı Proqramı üzrə xarici siyasət məsələləri və təhlükəsizlik üzrə Ali Nümayəndəsinə tövsiyə" adlı 2019/2209(INI) nömrəli qətnamə qəbul edib. Əvvəllər ölkəmizin ən ciddi tənqidçilərindən biri, Avropa Parlamentinin Litvadan olan deputatı Petras Auştreviçyus tərəfindən həmməruzəçilər Radoslav Sikorski, Anna Fotıqa (hər ikisi Polşa XİN-in keçmiş rəhbərləri olub), Attila Ara-Kovaç (Macarıstan) və Marketa Qreqorovanın (Çexiya) iştirakı ilə hazırlanmış bu qətnamə Azərbaycanın diplomatik qələbələri siyahısına daxil olmaqla bərabər, həm də Avropa İttifaqının prinsipial mövqeyini əks etdirən bir sıra ciddi müddəalardan ibarətdir.

AZƏRTAC xəbər verir ki, budəfəki sənədi elə preambulunda Avropa Parlamentinin 2010-cu il mayın 20-də qəbul edilmiş "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına tələblər" adlı 2009/2216(INI) nömrəli qətnaməsinə istinad edilir. Bizim yaxşı yadımızdadır, bu tarix erməni diplomatiyasının tarixinə qara gün kimi daxil olub. Qətnamədə iki dəfə - 8-ci və 10-cu bəndlərdə erməni qüvvələri tərəfindən tutulmuş ərazilər "işğal edilmiş ərazilər" adlandırılıb.

Ardı 3-cü səh.

# Bir ovuca sığan dünya

## İndi evdə qalıb yaşamaq zamanıdır...

Bəşəriyyət 2020-ci ilə yeni yaşam sınağıyla qədəm qoydu və dəhşətli pandemiya ilə mübarizəyə atıldı. Qəribədir ki, sürətlə qloballaşan dünyamızda sərhədlər bağlanır, karantin rejimləri tətbiq olunur, insanların evdə qalmaları tələb olunur...

Sürətlə yayılan koronavirus, COVID-19 bəlasının hələlik tibbi çarəsi tapılmasa da, ona yoluxmamağın qaydaları məlumdur və bunlar çox sadədir: maska taxmaq, sosial məsafə saxlamaq, gigiyenik qaydalara əməl etmək, ən təsirlisi isə evdə qalıb özünü təcrid etməkdir...

Virusun ilk dalğasına qarşı ölkəmizdə də bu çıxış yolundan istifadə edildi və sərt karantin rejimi və bütün imkanların pandemiyaya qarşı səfərbər edilməsi sayəsində qısa zamanda ölkəmizdə sanitar-epidemioloji vəziyyət nəzarət altına alındı.

Lakin karantin rejimi mərhələli şəkildə yumşaldıqca insanlar arasında infeksiyaya qarşı laqeydlik, hətta virusun varlığına belə inamsızlıq yarandı. Tələb olunan qaydalara məsuliyyətsiz yanaşma COVID-19-a qarşı əldə olunan nailiyyətləri yox etməyə başladı və gündən-günə infeksiyaya yoluxmanın sayı artaraq üçrəqəmli həddə sıçradı, ölənlərin sayı isə artdı.

### Sərt karantin: məcburiyyətdən doğan zərurət

Nəticədə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkədə sanitar-epidemioloji vəziyyət təhlil edilərək infeksiyaya yoluxma sürətini azaltmaq, insanların bir-biri ilə yaxın təmaslarını minimuma endirmək məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin yenidən avqustun 1-dək uzadılmasına qərar verildi.

21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək Bakı, Sumqayıt, Abşeron, Gəncə, Yevlax, Cəlilabad, Lənkəran və Masallıda sərt karantin rejiminin tətbiqinə qərar verildi. Qərara əsasən, həmin ərazilərdə SMS xəbərdarlıq və xüsusi icazə ilə evdən çıxma tətbiq ediləcək.

Koronavirusa qarşı mübarizənin ilkin mərhələsində birmənalı olaraq bəlli oldu ki, hazırda, yəni vaksin tapılana, yaxud dərman müalicəsi effektiv olana qədər təhlükədən uzaq durmağın yeganə yolu qaydalara əməl etmək və xüsusən evdə qalmaq, həyati vacib bir məsələ olmadan küçəyə çıxmamaqdır...

Ardı 4-cü səh.



# İqtisadi imkanlarımız pandemiya dövründə başqa ölkələrdən asılılığımızı minimuma endirib

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva bu günlər üç modul tipli xəstəxananın açılış mərasimində iştirak etmişlər. Bunlar paytaxtın Bilgəh qəsəbəsində, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir. Hər birində 100 palata və 200 çarpayı yeri olan bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub.

Bu gün dünya koronavirusdan xilas olmaq üçün mübarizə aparır. Bütün ölkələrin səhiyyə sistemi ağır sınaqdan keçir. Amma o da məlumdur ki, bir sıra ölkələrdə bu məsələyə münasibət birmənalı deyil. Ölkəmizdə isə ilk vətəndaşımız koronavirusa yoluxan anda Prezident İlham Əliyev bəyan etdi ki, bizim üçün əhalinin sağlamlığı hər şeydən üstündür. Həm də dövlət başçısı bəyanat verməklə kifayətlənmədi. Bu istiqamətdə qətiyyətli addımlar atdı, dövlətin bütün resurslarından istifadə edərək əhalinin sağlamlığını qorumaq üçün ciddi tədbirlər gördü:

"Bir müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını.

Ardı 2-ci səh.

# Ermənistanda Paşinyana etimad azalıb

## Baş nazir hakimiyyətini qorumaq üçün radikal addımlar atır

Ermənistanda koronavirusun yayılmasının qarşısını almaq məqsədilə fövqəladə vəziyyət rejimi iyulun 13-dək uzadılsa da, işğalçı ölkədə sosial-iqtisadi durum pandemiya ucbatından daha sürətlə pisləşməkdədir. Bunlar, eyni zamanda Paşinyan iqtidarına qarşı da dərin bir etimadsızlığın hökm sürdüyünü üzə çıxardır. Pandemiya fonunda ölkənin bütün sahələrdə, o cümlədən sosial sferada artan problemləri artıq baş nazir üçün ciddi çətinliklər yaratmaqdadır.

Görünən həm də budur ki, dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlara belə gedir. Ona qarşı çıxan qüvvələr indi sərt şəkildə Paşinyanı müxtəlif məsələlərdə ittiham edərək, ölkəni uçuruma doğru yuvarladığını bildirirlər.

Qeyd olunur ki, Ermənistanın gələcəyi əvvəllərdə olduğu kimi, bu gün də Paşinyan üçün elə də bir önəm kəsb etmir. Çünki hələ 2018-ci ildə Paşinyan hakimiyyətə gətiriləndə Ermənistanda çoxları onun ölkəyə rəhbərlik etmək iqtidarında olmadığını yaxşı anlayırdılar. Göründüyü kimi, bu da özünü çox gözlətmədi - koronavirus böhranı onun nəyə qadir olduğunu ortaya qoydu.

Bu günlərdə keçirdiyi növbəti brifinqlərin birində pandemiyanı müharibə ilə müqayisə edən Paşinyan bu zaman çaxnaşma və ya yanlış məlumat verənlərin hansı aqibətlə üzləşdiyini rəqiblərinə xatırladıb. Hətta vurğulayıb ki, koronavirus ölkədəki bir sıra siyasi qüvvə və qrupların ölümünə səbəb olacaq. Paşinyanın bu ittihamları hansı partiyaya ünvanladığı da açıq-aydındır. Xatırladaq ki, bir müddət bundan əvvəl də Paşinyan "Daşnaktsütyun" partiyası üçün heç bir şeyin dəyişmədiyini, yəni 2018-ci ilin yayından bəri bu partiyanın faktiki olaraq baş nazirin istefasını tələb etdiyini bildirmişdi.

Müxalifət liderləri Paşinyanın "Facebook" səhifəsində son günlərdə yazdıqlarının Ermənistan ictimaiyyəti üçün çox ciddi, təhlükəli xəbərdarlıq olduğunu iddia edirlər. Belə ki, baş nazir koronavirusa yoluxanların və ölənlərin sayının durmadan artmasını kütləvi olaraq tibbi maska geyinməkdən imtina etmələri ilə əlaqələndirmişdi: "Bəlkə biz vətəndaşlarımıza öz sağlamlıqlarının qeydinə qalmağı məcbur etməliyik.

Ardı 6-cı səh.

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

## "Sizin rəhbərliyinizlə xalqımız bu bəlaya da qalib gələcək"



*Əvvəli 1-ci səh.*

Siz öz əməli fəaliyyətinizlə hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunuzu bir daha sübut edirsiniz. Bütün bunlar onu təsdiqləyir ki, dövlətimiz etibarlı əllərdədir. Əziz Prezidentimiz, xalqa göstərdiyiniz diqqət və qayğıya görə bir daha Sizə təşəkkür edir, uzun ömür, cansağlığı arzulayıram. Uca Tanrının nəzəri üzərinizdən əskik olmasın!"

Ağcabədinin Avşar kəndindən **Ədalət Hüseynov:** "Çox hörmətli cənab Prezident, paytaxt Bakı, onun rayonları, qəsəbə və kəndləri, eyni zamanda respublikamızın bütün rayon və kəndləri Sizin böyük diqqət və qayğınız nəticəsində gündən-günə abadlaşır və inkişaf edir. Əhalinin maddi rifah halı getdikcə yaxşılaşır. Bütün bunlar, eləcə də gördüyünüz digər mühüm işlər, beynəlxalq aləmdə böyük siyasi xadim kimi misilsiz şöhrət qazanmağınız milyonlarla azərbaycanlıdan biri kimi mənim də qəlbimi sonsuz iftixar və qürur hissi ilə doldurur. İşlərinizin çox olduğu bir vaxtda imkan taparaq ölkəmizin müxtəlif bölgələrinə etdiyiniz səfərlər, sadə insanlarla görüşləriniz Sizə ümumxalq məhəbbəti qazandırıb. Cənab Prezident, belə bir unudulmaz sevinc yaşadığım rayonun əhalisinə də nəsib oldu. İyunun 4-də verdiyiniz sərəncam Ağcabədi sakinlərinin hədsiz sevincinə səbəb olmaqla hər birimizin qəlbində silinməz izlər buraxıb. Bütün bunlara görə Sizə dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayır, Ulu Tanrının bütün arzu və ideyalarınızın həyata keçməsində daim Sizə yardımçı olmasını diləyirəm".

Neftçala şəhərindən **Rövşən Mirzəyev:** "Hörmətli cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun ki, bu çətin dövrdə xalqımızı bəşəriyyəti bürümüş koronavirus bəlasından qoruyursunuz. Pandemiya müxtəlif ölkələrdə minlərlə insanın ölümünə səbəb olub. Azərbaycanda isə Sizin verdiyiniz müdrik qərarlar sayəsində bu dəhşətli bəlanın zamanında qarşısının alınması üçün lazımi tədbirlər həyata keçirildi. Ümumdünya Səhiyyə Təşkilatı da ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan tədbirləri yüksək qiymətləndirir və bu addımlar başqa dövlətlərə nümunə göstərilir. Biz nümunəvi ölkənin vətəndaşları olduğumuz üçün fəxr edirik. Möhtərəm cənab Prezident, Ulu Tanrı Sizə və ailənizə kömək olsun!"

Şirvan şəhərindən **Dürdanə Əzizli:** "Hörmətli cənab Prezident, Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ilin iyun ayında Azərbaycan xalqının səsinə səs verərək hakimiyyətə yenidən qayıdışı ilə xalqımızı faciələrdən qoruduğu kimi, Siz də bu gün xalqımızı çox böyük bəlalardan qoruyur, hər bir vətəndaşın sağlamlığının qayğısına qalırsınız. Dünyanı bürüyən pandemiya dövründə dünyanın əksər inkişaf etmiş ölkələrində belə çarpayı çatışmazlığı ucbatından xəstələrin hətta xəstəxanalara götürülmədiyi bir halda, bizim bütün xəstələrimiz xəstəxanalarda yerləşdirilir və həkimlər onlara gecə-gündüz xidmət göstərirlər. Sizin uzaqgörən siyasətiniz nəticəsində modul tipli xəstəxanaların sayı artırılır və tikintisi sürətlə davam etdirilir. Biz şirvanlılar xalqımızın sağlamlığını düşünərək qəbul etdiyiniz bu qərarlara görə Sizə təşəkkür edirik. Biz tam əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı tezliklə qarşısına çıxan bu bəlaya qalib gələcəkdir. Allah Sizi və ailənizi qorusun!"

Cəbrayıl rayonundan məcburi köçkün, II qrup Qarabağ müharibəsi əlili **Murad Ağayarov:** "Çox hörmətli cənab Prezident, biz Qarabağ müharibəsi əlilləri və məcburi köçkünlər daim Sizin və Mehriban xanım Əliyevanın diqqət və qayğısını görmüşük. 1993-cü ildə erməni təcavüzü nəticəsində torpaqlarımız işğal olunduqdan sonra müvəqqəti olaraq Ceyranbatan qəsəbəsi ərazisində məskunlaşdıq, şəraitimiz çox acınacaqlı və ağır idi. 2012-ci ildə Sizin tapşırığınıza əsasən Qaradağ rayonu Müşfiqabad qəsəbəsində 1680 ailə üçün nəzərdə tutulan binalar inşa edildi və 2013-cü ildə biz məcburi köçkünlərə verildi. Hazırda həmin mənzillərdə çox gözəl şəraitdə yaşayırıq. Cənab Prezident, koronavirus pandemiyasının bütün dünyaya sürətlə yayıldığı zamanda Sizin vaxtında müdrik və çevik addımlarınız sayəsində bizim ölkədə virusun geniş yayılmasının, insan ölümünün çox olmasının qarşısı alınmaqdadır. Pandemiyanın bütün dünyaya vurduğu iqtisadi zərərə baxmayaraq, bizim ölkədə abadlıq-quruculuq işləri dayanmadı və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq üçün binaların inşası başa çatdırıldı. Ötən ay "Qobu Park-3" yaşayış kompleksinin açılışı buna əyani sübutdur. Görülən bütün bu işlər Sizin apardığınız uğurlu xarici və daxili siyasətin nəticəsidir. Biz məcburi köçkünlər hər zaman ətrafınızda sıx birləşərək Sizin "Biz birlikdə güclüyük!" şüarınızı dəstəkləyirik".

Lənkəran rayonunun Liman şəhərindən **İnqilab Nuriyev:** "Çox hörmətli cənab Prezident, mənim övladım Azərbaycan Kooperasiya Universitetinin 2-ci kurs tələbəsidir, ödənişli əsaslarla təhsil alır. COVID-19 pandemiyası dövründə verdiyiniz humanist tapşırıqlardan biri də ödənişli təhsil alan tələbələrin bu il üçün təhsil haqqının dövlətimiz tərəfindən ödənilməsi oldu. Sözsüz ki, bu addım yüzlərlə aztəminatlı ailə kimi mənim ailəmi də sevindirdi. Cənab Prezident, Siz ölkə vətəndaşlarının hər zaman dar gündə yanında olmusunuz. Buna görə də Sizə ailəmin adından dərin minnətdarlığımı bildirirəm. İşləriniz avand olsun!"

## *Hikmət HACIYEV:* "Paşinyan təxribatçı açıqlamaları ilə danışıqların formatını və mahiyyətini dağıdır"



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan baş nazirinin açıqlamasını AZƏRTAC-a şərh edib.

Hikmət Hacıyev bildirib ki, 2019-cu ilin oktyabr ayında Müstəqil Dövlətlər Birliyinin dövlət başçılarının Aşqabad Zirvə Toplantısında Prezident İlham Əliyev faşist Qaregin Njde ilə bağlı Ermənistanın siyasətini ifşa edib. Toplantı zamanı Ermənistanın baş naziri N.Paşinyan isterik şəkildə faşist Q.Njdeni müdafiə etməyə çalışmaqla özünü gülünc vəziyyətə salıb.

Daha sonra N.Paşinyan 2020-ci ilin fevral ayında Münxen Təhlükəsizlik Konfransında Ermənistanın, dünya erməniliyinin və beynəlxalq ictimaiyyətin gözü qarşısında Prezident İlham Əliyev tərəfindən tamamilə darmadağın olunaraq utanc vəziyyətə düşüb.

Bunun ardınca N.Paşinyanın Q.Njde kimi öz faşist babasını təbliğ etməsi də ifşa olunub.

Ermənistanın baş naziri bu zərbələrdən özünə gəlməmiş 2020-ci il iyunun 18-də Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının videokonfransında növbəti biabırçılıqla üzləşdi. Prezident İlham Əliyevin faktlara əsaslanan mövqeyinə cavab verməyə cəhd edən N.Paşinyan videokonfransda çaşqınlıq yaradan, istehza ilə qarşılanan erməni dilində danışığı və gülüş doğuran ingilis dili ilə yadda qaldı.

Onun iddiaları Prezident İlham Əliyev tərəfindən təmkinli, eyni zamanda, tutarlı və qəti şəkildə təkrarən cavablandırıldı. Prezident İlham Əliyev Fransanın Orli hava limanında terror törədən Varujan Karapetyanın Ermənistana ekstradisiya edilməsi və qəhrəmanlaşdırılması faktını qeyd edərək Ermənistanın rasizm, terrorizm kimi məsələlərdə danışmamalı olduğunu bildirdi.

Bundan başqa, videokonfransa maska ilə qatılan yeganə dövlət başçısı olan N.Paşinyan bununla özünü məsxərəyə qoydu. Bu da onu göstərir ki, N.Paşinyanın koronavirusa yoluxması barədə dedikləri növbəti populizmdir.

Yerevan küçələri ilə beynəlxalq tədbirləri qarışıq salan və hər dəfə özünü biabır edən Ermənistanın baş naziri öz uğursuzluğuna haqq qazandırmaq üçün yenə də Azərbaycana qarşı ittihamlar irəli sürərək populist məzmunlu çıxış edib.

N.Paşinyan hazırda çarəsiz durumdadır. O, faktiki olaraq Ermənistanda inqilabi diktatura qurub. Müxalifət nümayəndələrinin, jurnalistlərin və hakimlərin həbs edilməsi, hər hansı əks fikir söyləyən şəxslərin susdurulması və şantaj edilməsi, müxalifət nümayəndəsinin həbsdə ölməsi Ermənistanda geniş yayılmaqda olan praktikadır. Onun koronavirusa qarşı apardığı mübarizənin iflasa uğraması göz qabağındadır. Çaşqın vəziyyətə düşən N.Paşinyan ölkədaxili istehlak üçün bir-birinin ardınca təxribatçı və ziddiyyətli açıqlamalar verir.

N.Paşinyan bu cür təxribatçı açıqlamaları ilə danışıqların formatını və mahiyyətini dağıdır. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, danışıqların formatı dəyişdirilə bilməz. N.Paşinyanın iddia etdiyi kimi, "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Prezident İlham Əliyevin 2019-cu ilin oktyabr ayında Valday toplantısında vurğuladığı kimi, "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi".

Azərbaycan özünün işğal olunmuş bütün torpaqlarını Ermənistanın işğalından azad edəcək və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində öz ərazi bütövlüyünü bərpa edəcək.

Vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə şəxsən N.Paşinyanın üzərinə düşür.

## İqtisadi imkanlarımız pandemiya dövründə başqa ölkələrdən asılılığımızı minimuma endirib

*Əvvəli 1-ci səh.*



Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həminə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik... Bütövlükdə baxanda bizim iqtisadi fəaliyyətimiz də bu müddət ərzində çox uğurlu olub. Ancaq iqtisadiyyat tənəzzülə uğrasa da, bərpa ediləcəkdir, insanların həyatını isə bərpa etmək mümkün deyil. İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır". Bu sözləri Prezident sözügedən komplekslərin açılışı zamanı söyləmişdir.

Prezidentin atdığı humanist addımları xalq birmənalı olaraq dəstəkləyir, dövlət başçısına minnətdarlıq edir. Ümumdünya Səhiyyə Təşkilatı da ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan mübarizəni yüksək qiymətləndirərək Azərbaycanı bu sahədə nümunə göstərir.

Lakin Prezident İlham Əliyevin humanizmi təkcə öz xalqının sağlamlığını qorumaqla bitmir. Dövlət başçısı, həmçinin dünyada bu xəstəliyə tutulan insanların xilası üçün də addımlar atır. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 15 ölkəyə humanitar yardım göstərib. Bununla yanaşı, 14 ölkəyə fərdi qaydada humanitar yardımın çatdırılması ilə bağlı müraciətə müsbət cavab verib. Təsadüfi deyil ki, dünyada koronavirus pandemiyasından əziyyət çəkən ölkələrə bu gün ən çox yardım göstərən dövlətlərdən biri də Azərbaycandır.

Ölkəmizdə koronavirusa yoluxma hallarının və COVID-19-dan həyatını dəyişənlərin sayının başqa ölkələrə nisbətən az olması da vaxtında görülən tədbirlərin nəticəsidir. Hazırda Azərbaycanda xəstəliyi erkən aşkar etmək imkanına malik 20-dən çox laboratoriya fəaliyyət göstərir. Koronavirusa yoluxanların müalicəsi üçün ölkənin 20 qabaqcıl xəstəxanası ayrılıb. Həmçinin karantinə götürülən vətəndaşlar hər şəraiti olan yeni klinikalarda, bəzi hallarda isə 4-5 ulduzlu hotellərdə qalırlar. Azərbaycan həm də nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibb müəssisələrində müalicə olunurlar, halbuki dünyanın əksər ölkəsində xəstəliyi simptomlarsız keçirən insanlar ev şəraitində müalicə alırlar.

Koronavirusla mübarizədə Azərbaycan cəmiyyətindəki həmrəylik Prezident səviyyəsində yüksək qiymətləndirilir. Koronavirusla Mübarizəyə Dəstək Fonduna qısa müddətdə 100 milyon manatdan çox vəsaitin köçürülməsi, həmçinin 10 modul tipli xəstəxananın 4-nün özəl sektor tərəfindən inşa edilməsi bunun göstəricisidir.

Bu gün qeyri-neft sənayesinin imkanları sayəsində tibbi maska, həkimlər üçün xüsusi geyimlər, dezinfeksiya vasitələri ölkəmizdə istehsal olunur. Bu o deməkdir ki, sənaye potensialımız indiki fövqəladə vəziyyətdə əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır. Başqa sözlə, ölkəmizin hərtərəfli inkişafı, maliyyə imkanlarının geniş olması bizim müstəqilliyimizi təmin edir, Prezidentin qeyd etdiyi kimi, bu sahədə heç bir dövlətdən və beynəlxalq maliyyə qurumundan asılacağımız yoxdur. Belə ölkələrin sayı isə dünyada məhdud saydadır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycanda koronavirusa daha 471 yoluxma faktı qeydə alınıb, 191 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 471 yoluxma faktı qeydə alınıb, 191 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 12 min 238 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 6516 nəfər müalicə olunaraq sağalıb, 148 nəfər vəfat edib. Aktiv xəstə sayı 5574 nəfərdir.

Ötən müddət ərzində 417 min 102 test aparılıb. Bugünkü test sayı isə 6627-dir.

## Azərbaycan Ali Hərbi Məktəbində növbəti buraxılış mərasimi keçirilib







İyunun 20-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 2020-ci il buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Hərbi orkestrin müşayiəti ilə şəxsi heyətin ifasında Azərbaycanın Dövlət himni səsləndirilib, məktəbin döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov çıxış edərək əlamətdar gün münasibətilə məzunları Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, gənc zabitlərə cansağlığı, ailə səadəti və xidmətdə uğurlar arzulayıb.

Sonra məktəbin məzunlarına diplomlar və fərqlənənlərə qiymətli hədiyyələr təqdim olunub.

Hərbi orkestrin və kursantların ifasında məktəbin marşı ifa edildikdən sonra şəxsi heyət tribunanın önündən keçib.

## Hərbi Hava Qüvvələrinin yeni inşa edilmiş hərbi hissəsinin açılışı olub



Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Hərbi Hava Qüvvələrinin yeni inşa edilən hərbi hissəsinin açılış mərasimində iştirak edib və şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-leytenant R.Tahirov ərazidəki qərargah binası, əsgər yataqxanası, tibb məntəqəsi, yeməkxana, sinif otaqları, mətbəx, ərzaq və əşya anbarı, qazanxana, sıra meydanı, nəzarət buraxılış məntəqəsi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Qeyd olunub ki, yaradılan şərait şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına müsbət təsir göstərəcək, hava məkanımızın daha etibarlı qorunması məqsədilə döyüş növbətçiliyinin keyfiyyətli təşkilini və aparılmasını təmin edəcək.

## Hərbi hissədə lazımi şərait yaradılıb



Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsinin açılışı olub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-mayor Hikmət Mirzəyev ərazidəki qərargah, tədris binası və tibb məntəqəsi ilə tanış olub.

Məlumat verilib ki, bütün binalar müasir mebel və avadanlıqla tam təmin olunub. Hərbi hissədə xüsusi təyinatlıların peşəkar hazırlığı və döyüş vərdişlərinin artırılması üçün lazımi şərait yaradılıb. Hərbi hissənin maddi-texniki bazasının daha da təkmilləşdirilməsi nəzərdə tutulur.

# İLHAM ƏLİYEV Ermənistana növbəti diplomatik zərbə vurdu

Əvvəli 1-ci səh.



Birincisi, Avropa İnsan Hüquqları Məhkəməsinin mayın 26-da çıxardığı "Makuçyan və Minasyan Azərbaycana və Macarıstana qarşı" işi üzrə qərar hər kəs üçün əlçatandır və tanışlıq göstərir ki, həmin sənəddə Paşinyanın iddia etdiyi kimi, Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirməsi ilə bağlı bir söz belə yoxdur. Eyni zamanda bu qərarın çıxarılması ilə erməni tərəfi qarşıya qoyduğu əsas hədəfə nail ola bilməyib və Budapeşt şəhərində baş vermiş hadisəyə görə Azərbaycanın məsuliyyət daşıması barədə ermənilərin iddiası tamamilə iflasa uğrayıb. Belə ki, hadisənin fərdi davranış əsasında törədildiyi qərarda qeyd olunub.

İkincisi isə, Ramil Səfərovun əfvi heç bir beynəlxalq razılaşmanın və öhdəliyin ziddinə deyil. Dövlət başçısının əfv etmə səlahiyyətləri suveren qaydada həyata keçirilir, heç bir dövlət və ya dövlətlər qrupu, beynəlxalq təşkilat, beynəlxalq məhkəmə orqanları bu səlahiyyətə müdaxilə edə bilməz.

Prezident İlham Əliyevin "Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə, Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə də belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim" sözləri isə cəmi bir neçə cümlə ilə Ermənistanın terrorçu siyasətinin ifşası oldu. İlham Əliyev erməni terrorçuluğunun yalnız bir epizodunu xatırlatdı. Erməni terroru ilə bağlı faktları kifayət qədər uzatmaq olar. Çünki onların həyata keçirdikləri qanlı cinayət əməllərinin sayı bir deyil, iki deyil, çoxdur. Bu hadisələr zamanı zərər çəkənlər həm də elə Avropa və Amerika vətəndaşları olublar.

Beləliklə, bu hadisə İlham Əliyevin Ermənistana vurduğu növbəti diplomatik zərbə oldu. Bu mənada Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitində baş verənlər Paşinyanın salındığı nokdaunların, Ermənistanın beynəlxalq səviyyədə ifşa siyasətinin uğurlu davamı idi. Prezident İlham Əliyevin səsləndirdiyi bütün fikirlər dünya ictimaiyyətinə bir daha bəyan oldu. Dövlət başçısı Azərbaycanın üzləşdiyi problemin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırmaqla haqqın bizim tərəfimizdə olduğunu əsaslandırdı.

Paşinyan isə yalnız çıxılmaz vəziyyətə salınmadı. Erməni baş nazir kəmsavad çıxışı, arada heç kimin anlamadığı ermənicə danışması, ehtiyac olmadan qoruyucu maskadan istifadə etməsi ilə həm də özünü beynəlxalq ictimaiyyət qarşısında gülünc vəziyyətə saldı.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Avropa Parlamenti faktiki olaraq Prezident İlham Əliyevin dediyi "Qarabağ Azərbaycandır!" sözlərini təkrar edib

Əvvəli 1-ci səh.

On il bundan əvvəl həmin qətnaməyə bir istinadda Avropa Parlamentinin Cənubi Qafqazda münaqişələrə öz münasibətini bir daha bildirməli və təsdiqləməli olduğu ciddi sərhədlər göstərilmişdi. Bir daha xatırladaq ki, həmin qətnamədə Avropa Parlamenti regiondakı üç dövlətin ərazi bütövlüyünü dəstəklədiyini birmənalı şəkildə ifadə edib, erməni tərəfinin manipulyasiya etdiyi "təyini-müqəddərat hüququ"nun adını bircə dəfə də çəkməyib və beləliklə erməni şərhçiləri bu sənədi istədikləri kimi interpretasiya etmək imkanından məhrum edib.

Avropa Parlamentinin qəbul edilmiş yeni qətnaməsi Ermənistanın diplomatik fiaskolar seriyasının davamı olub. Bu dəfə də "təyini-müqəddərat hüququ" barədə bircə kəlmə də yoxdur. Burada qeyd etmək lazımdır ki, buna heç də asanlıqla nail olunmayıb. Avropa Parlamentinin Kiprdən və Yunanıstandan olan üzvlərinin timsalında erməni lobbisi iki dəfə qətnamənin mətninə xilaskar "təyini-müqəddərat" saman çöpünü daxil etməyə cəhd göstərib (onlar anlamadılar ki, bu, Kipr məsələsində bumeranq kimi onların özünə zərbə ola bilər). Əvvəlcə, 2017/2130(INI) nömrəli qətnamədəki ifadəni sözbəsöz təkrar edən (yəni münaqişənin nizamlanmasının üç prinsipini sadalayan) düzəliş etməyə cəhd göstərildi, bu cəhd baş tutmayandan sonra elə həmin deputatlar mətnə sadəcə 2017-ci il qətnaməsinə istinad daxil etməyə çalışdılar. Onu da deyək ki, ikinci cəhd məkrli şəkildə - cümə günü axşam, komitədə səsvermə ərəfəsində göstərildi. Görünür, onlar ümid edirdilər ki, iş həftəsi başa çatandan sonra həmkarları evlərinə gedəcək və sonuncu dəqiqədə "dürtülmüş" düzəlişi heç kəs ləğv etməyəcək. Lakin avropalıların xoşməramlı jestindən Ermənistanın sui-istifadə etməsi kimi acı təcrübədən dərs almış komitə üzvləri hər iki dəfə prinsipiallıq göstərdi və lobbiçilərin bu kələklərini rədd etdi.

Qəbul edilmiş qətnamənin qiymətli cəhəti ondan ibarətdir ki, bu sənəd mövcud oxşar münaqişələrə fərqli yanaşma tətbiq etməyin yolverilməz olmasını dünya birliyi tərəfindən get-gedə daha çox başa düşülməsini əks etdirir. Gəlin xatırlayaq, Ukrayna, Gürcüstan və Moldovada münaqişələrə münasibətdə ərazi bütövlüyünün həmişə dəstəklənməsi bildirildiyi halda Ermənistan-Azərbaycan münaqişəsinə gəldikdə, "ATƏT-in Minsk qrupunun səylərinin dəstəklənməsindən" danışılır, bu cür yanaşma bizi həmişə məyus edir, erməniləri isə, əksinə, sevindirirdi. Bugünkü qətnamə dünya birliyinin oxşar təbiətli münaqişələrə münasibətdə dualizmdən uzaqlaşmasını göstərən aşkar faktdır. Doğrudur, sənədin (b r) bəndində ATƏT-in Minsk qrupunun səylərinin dəstəklənməsindən danışılır, lakin burada ermənilərin çox xoşladığı üç prinsipi amorf şəkildə təkrarlamadan münaqişənin BMT Nizamnaməsində və 1975-ci il Helsinki Yekun Aktında əks olunmuş beynəlxalq hüquq normaları əsasında nizamlanmasının zəruriliyi vurğulanır. Bu norma və prinsiplərin məzmunu, xüsusən təyini-müqəddərat məsələsində onların reallaşması çərçivələri nədən ibarətdir - qoy ermənilər zəhmət çəkib bu sənədlərə müraciət etsinlər. Hərçənd, Helsinki sənədinin mövcud olması barədə susmalarına görə şübhə etmirik ki, onlar həmin sənədi diqqətlə öyrəniblər və xalqların təyini-müqəddərat hüququnun reallaşdırılması üçün bu sənəddə göstərilən meyarları çox yaxşı bilirlər.

Yeri gəlmişkən, indi biz qətnamənin ən maraqlı məqamlarına keçirik. Məsələnin mahiyyətini tam anlamaq üçün sənədin mətnini göz qabağında tutmaq yaxşı olar. Beləliklə, preambulun M. bəndi xüsusi diqqət, ən başlıcası - sətirlər arasında mənanı oxumaq bacarığı tələb edir. Göründüyü kimi, bu bənd iki hissədən ibarətdir - nöqtəli vergülə (;) qədər və ondan sonra. Həqiqətən, nəzərdən keçirilən bənddə bu durğu işarəsi çox vacib və Ermənistan üçün çox xoşagəlməzdir, çünki ";" işarəsi təhlil olunan bəndin birinci və ikinci hissələri arasında bir növ ayırıcı hədd kimi xidmət edir və dəqiq ismarıc göndərir ki, sənədin bu bəndinin həmin iki hissəsini həm ayrılıqda, həm də ümumi kontekstdə nəzərdən keçirmək lazımdır.

Beləliklə, bəndin birinci hissəsində söhbət ondan gedir ki, "Şərq Tərəfdaşlığı ölkələrinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü hələ də həll edilməmiş regional münaqişələr, xarici təcavüz (!) və həmin ölkələrin bəzilərinin işğalının davam etməsi (!) ucbatından pozulmuşdur..." və ilaxır, ayırıcı nöqtəli vergülə qədər.

Bəli, gördüyümüz kimi burada Ermənistanın adı çəkilmir, lakin necə deyərlər, iblis təfərrüatda gizlənir. Ayırıcı nöqtəli vergüldən sonra, yəni preambulun bu bəndinin ikinci hissəsində yazılanlar hər şeyi aydınlaşdırır və Ermənistana biabırçı təcavüzkar statusu verir. İkinci hissədə isə üçüncü ölkənin adı çəkilir, lakin bu, çox eleqant və incə şəkildə edilir, faktiki olaraq eyhamla bildirilir ki, birinci hissədə adıçəkilən həmin ölkə ilə yanaşı, həm də Ermənistandan söhbət gedir: "bu münaqişələrin əksəriyyətində (!)" Avropa parlamentarilərinin fikrincə, üçüncü ölkə "neqativ rol" oynayır. Həmin üçüncü ölkənin adını burada təkrarlamayacağıq, xüsusən ona görə ki, arzu edənlər qətnamənin mətnindən bunu özləri üçün aydınlaşdıra bilərlər. Bizim üçün isə vacib olan odur ki, preambulun bu bəndinin ikinci hissəsində "bütün bu münaqişələr" barədə deyil, "bu münaqişələrin əksəriyyəti (!)" barədə söhbət gedir. Təfərrüatda gizlənən "iblis" budur. Yəni əgər "bu münaqişələrin əksəriyyətində" həmin üçüncü ölkənin əli varsa, azlıqda qalmış münaqişədə əli olan Ermənistan deyilsə, hansı ölkədir? Əgər sənədin bu bəndinin birinci hissəsində qeyd edildiyi kimi, BÜTÜN bu münaqişələrdə, "xarici təcavüz" və "davam edən işğal" baş verirsə və "bu münaqişələrin əksəriyyətində" adıçəkilən üçüncü ölkənin əli varsa (belə çıxır ki, "münaqişələrin əksəriyyəti" dedikdə Ukrayna, Moldova və Gürcüstanda baş verən münaqişələr nəzərdə tutulur), onda azlıqda qalmış Ermənistan-Azərbaycan münaqişəsində xarici təcavüzkar və işğalçı rolunu adı çəkilməyən hansı "sirli" ölkə yerinə yetirir? Axı Azərbaycan özü özünə hücum etməyib və özü özünü işğal etməyib!

Bu yerdə uşaqlar üçün bir tapmaca yada düşür: "Ağacda iki quş oturmuşdu. Ovçu bu quşlardan birini vurdu. Ağacda neçə quş qaldı?"

Burada isə, əlbəttə, Ermənistan da var. Avropa Parlamenti çox incə formada, ad çəkmədən Ermənistanı xarici təcavüz törədən və xarici ölkənin ərazisini işğal edən ölkə hesab edib. Diplomatiya dilinin gözəlliyi də budur - ad çəkilmir, amma söhbət elə qurulur ki, istisna metodları müsahibi məhz sənin açıb demədiyin nəticəyə gətirib çıxarır, sən öz ismarıcını ünvan sahibinə tam həcmdə çatdırırsan.

Qətnamənin preambulunun bu bəndində daha bir maraqlı məqam var. Avropa Parlamenti xarici təcavüzün və işğalın neqativ nəticələri barədə söz açaraq, insan haqlarının pozulmasını qeyd edir. Bu, çox vacibdir. Burada erməni diplomatiyasının Ermənistan-Azərbaycan münaqişəsini bir ölkənin digərinə qarşı təcavüzü sahəsindən ..."insan haqları" sahəsinə keçirmək kimi gülünc cəhdləri yada düşür. Guya bu münaqişənin nizamlanmasında erməni əhalinin özünü ayrıca xalq elan etmək hüququnu əsas götürmək, Azərbaycan Konstitusiyasına məhəl qoymamaq, özbaşına referendumlar keçirmək, birtərəfli qaydada ayrılmaq və sair sərsəmliklər (insan haqları konsepsiyasının baniləri onların təliminin zoraki separatizmə şamil olunmasını eşitsəydilər, qəbirdə çevrilərdilər). Münaqişəyə "insan haqları" çaları verməyə cəhd edən təkcə bu gün özünü yeni "qərbpərəst" komandanın nümayəndəsi kimi qələmə verən Zoqrab Mnatsakanyan deyil, onun sələfi Edvard Nalbandyan da, məsələn, "Alman dalğası"nın müxbiri Janna Nemtsovaya müsahibəsində bu ruhda danışmağa çalışmışdı. Yeri gəlmişkən, müxbir nazirin Qarabağın erməni sakinlərinə insan haqları vermək və eyni zamanda Azərbaycan icmasının həmin hüquqlarını tamamilə unutmaq cəhdi ilə əlaqədar səmimi heyrətləndiyini bildirmişdi.

İndi isə gördüyümüz kimi, Avropa parlamenti bu gün qəbul edilmiş qətnamədə irəvanlı "liberalların" insan haqları məsələsi ilə spekulyasiya etmək cəhdlərini faktiki olaraq rədd edib, eyhamla bildirib ki, təcavüz və işğal insan haqlarını, ilk növbədə, bu işğalın qurbanları olan qaçqınların və məcburi köçkünlərin hüquqlarını pozur.

Preambulun bir qısa bəndində ermənilərin mövqelərinə bu qədər zərbə vurulur!"

(b o) bəndində xarici qoşunların işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılması barədə çağırış var. Bu bənd ərazilərində işğalçı qoşunların dislokasiya edildiyi "Şərq Tərəfdaşlığı"nın iştirakçıları olan bütün ölkələrə və deməli, əraziləri Ermənistan tərəfindən işğal edilmiş Azərbaycana da aiddir. Heç bir istisna yoxdur, cənab təcavüzkarlar! İşğalı əbədiləşdirmək baş tutmayacaq, əraziləri azad etməli olacaqsınız!

Avropa Parlamentinin qətnaməsində daha bir yeni element ondan ibarətdir ki, Avropa İttifaqı Şərq Tərəfdaşlığının iştirakçıları olan ölkələrin "beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində" (b m bəndi) suverenliyini, ərazi bütövlüyünü və siyasi müstəqilliyini dəstəkləyir. Erməni rəsmiləri öz xalqını hələ də belə bir tezislə aldatmaqda davam edir ki, guya dünya birliyi tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsinin hələ Azərbaycan müstəqillik əldə edənə qədər onun tərkibindən guya "çıxmış" Dağlıq Qarabağa "aidiyyəti yoxdur" və beləliklə, "Arsaxın öz müqəddəratını təyin etməsi Azərbaycanın ərazi bütövlüyünü əsla pozmur, Azərbaycan müstəqillik əldə edəndən sonra guya Qarabağ heç vaxt onun ərazisinə daxil olmayıb. Avropa Parlamentinin qətnaməsində Avropa İttifaqının "ərazi bütövlüyü" anlayışının məhz nədən ibarət olması dəqiqləşdirilir, bu cür spekulyasiyalar rədd edilir və bu məsələyə qəti nöqtə qoyulur. Aİ Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyərkən, məhz beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində, yəni Dağlıq Qarabağ regionu ilə birlikdə ərazini nəzərdə tutur. Avropa Parlamentinin İrəvana ismarıcı məhz bu dərəcədə dəqiqdir və indi bu məqam qəbul edilmiş qətnamənin (b m) bəndində əks olunub.

Ən böyük sensasiya isə qətnamənin həmin bəndində təsbit olunmuş "[dövlətlərin] bu prinsiplərin təmin olunmasının [Avropa İttifaqı tərəfindən] bütövlüklə dəstəklənməsidir" ("support their efforts to fully enforce those principles"). Avropa İttifaqı ilk dəfədir ki, dövlətlərin öz suverenliyini, beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü və siyasi müstəqilliyini güclə təmin etmək hüququnu nəinki tanıyıb, həm də bu səyləri dəstəkləyib!

Yuxarıda adını çəkdiyimiz Helsinki Aktında güc tətbiq etməyin və güc tətbiq etməklə hədələməyin yolverilməzliyi prinsipi ilə spekulyasiya edən İrəvana bu da aydın siqnaldır. Axı, beynəlxalq hüquq münaqişələrin həlli zamanı güc tətbiq edilməsinə təcavüzkar üçün münasib olan müəyyən andan (erməni tərəfin interpretasiyasında 1994-cü ildə atəşkəs haqqında sazişin imzalandığı andan) etibarən deyil, prinsipcə, yolverilməz sayır. Ermənistan-Azərbaycan münaqişəsində indiki status-kvonun qəbul edilməsindən dünya birliyinin, o cümlədən Avropa İttifaqının və ATƏT-in Minsk qrupunun imtina etməsi təbiidir, çünki status-kvo lap əvvəldən qeyri-qanuni güc tətbiq edilməsinin nəticəsi olub. Buna görə də güc tətbiq etməyin və güc tətbiq etməklə hədələməyin yolverilməzliyi prinsipi 1994-cü ildə atəşkəs anından deyil, onun ilk dəfə tətbiq edilməsindən əvvəl qüvvəyə minir. İlkin status-kvo məhz odur!

Beləliklə, təcavüz və işğalların qurbanları olan ölkələrin öz ərazi bütövlüyünün güclə təmin edilməsinə (enforce) səylərinin Avropa İttifaqı tərəfindən qətnamədə ifadə olunmuş dəstəklənməsi İrəvana daha bir ismarıcdır - güc tətbiq edilməsi 1994-cü ildən deyil, Ermənistan-Azərbaycan dövlət sərhədinin hər hansı silah növü ilə ilk dəfə icazəsiz keçildiyi andan qeyri-qanunidir. Qətnamənin (b o) bəndində tələb edilir ki, əgər könüllü olaraq ilkin mövqelərə, yəni dövlət sərhədindən kənara çəkilməsələr, işğal olunmuş ölkənin qəbul edilmiş və bu gündən etibarən Avropa İttifaqı tərəfindən dəstəklənən öz ərazi bütövlüyünü güclə təmin etmək hüququ var!

Bu isə beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul edilmiş sənədləri kitabxanasında həqiqətən inqilabi yenilikdir. Bu yeniliyə zərurət Ermənistanın inadkarcasına bunu anlamaq istəməməsi nəticəsində yaranıb ki, beynəlxalq birlik tərəfindən qəbul edilmiş bütün əvvəlki qətnamələr sadəcə kağız parçası deyil, onları yerinə yetirmək lazım idi və bunu təcavüz qurbanlarının işğal olunmuş torpaqlarının məcburi şəkildə azad edilməsi və qəbul edilmiş sərhədlər çərçivəsində ərazi bütövlüyünün bərpa olunması hüququnun sənədli şəkildə təsdiqlənməsini gözləmədən könüllü şəkildə etmək lazım idi (və hələ bunu etmək gec deyil)!

Avropa Parlamentinin bugünkü qətnaməsi "Şərq Tərəfdaşlığı"nın iştirakçıları olan ölkələrdə onilliklər boyu uzanan münaqişələr barəsində Avropa İttifaqının birgə mövqeyinin ifadəsi oldu. Bu qətnamə Aİ-nin və proqramın iştirakçısı olan altı ölkənin dünən keçirilmiş birgə onlayn-sammitinin siyasi ahəngini müəyyən edib. Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi həmin sammitdə Avropa Parlamenti qəti həlli tələb olunan Ermənistan-Azərbaycan münaqişəsində dövlətimizin ədalətli mövqeyini tam dəstəklədi. Bu dəstək həm də Avropa İttifaqı Şurasının keçmiş prezidenti, Avropa Xalq Partiyasının sədri Donald Tuskun sammit başlanandan bir neçə saat əvvəl yayılmış parlaq bəyanatında da ifadə olunub. AZƏRTAC bu haqda dərhal məlumat verib. Bu gün Avropa İttifaqının bütün guşələrindən seçilmiş nümayəndələr ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış dövlət sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü dəstəkləyərək Prezident İlham Əliyevin tarixi "Qarabağ Azərbaycandır!" frazasını təkrarlayıblar.

# İlham Əliyev Paşinyanı bir daha çıxılmaz vəziyyətə saldı

Avropanın aparıcı təşkilatlarından olan Avropa İttifaqı (Aİ) ilə Azərbaycanın əlaqələrində xüsusən son on ildə ciddi irəliləyişlər müşahidə olunmaqdadır. Bu, ölkəmizin xarici siyasətinin uğurunun təzahürü kimi təqdirəlayiqdir. Eyni zamanda Azərbaycan Aİ-yə üzv ölkələrlə sıx əlaqələrə malikdir. Hətta respublikamızın bu təşkilata üzv olan doqquz ölkə ilə əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi isə həm Azərbaycanın, həm Aİ-nin, həm də bu quruma üzv ölkələrin maraqlarına cavab verir.



Azərbaycan Aİ ilə Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində də fəal əməkdaşlıq həyata keçirir. İyunun 18-də keçirilən Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammitində bu barədə ətraflı söhbət açıldı. Cənab İlham Əliyev Azərbaycanı Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsi adlandıraraq, Aİ ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən olduğunu bildirdi. Məlum olduğu kimi, hələ 2018-ci ilin yayında respublikamızla Avropa İttifaqı arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədi, ilk növbədə, bu qurumun Azərbaycanın ərazi bütövlüyünə olan ehtiramının nümunəsi idi. Çünki sənəddə hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Hazırda Azərbaycanla Aİ arasında yeni tərəfdaşlıq sazişi üzərində iş gedir. Bu sənədin imzalanması ilə respublikamızla Avropa İttifaqı arasında əməkdaşlıqda tamamilə yeni mərhələ başlayacaq.

Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitinin başqa bir mühüm tərəfi isə Azərbaycan Prezidentinin bu mötəbər təşkilatın imkanlarından səmərəli şəkildə yararlanaraq, ölkəmizin məruz qaldığı işğalla bağlı həqiqətləri bir daha Avropa ictimaiyyətinin diqqətinə çatdırması oldu. Bəli, fakt faktlığında qalır və bu gün Avropa dəyərləri, o cümlədən Şərq Tərəfdaşlığı çərçivəsində işğalçılığa, separatizmə, ərazi bütövlüyünün pozulmasına yer yoxdur. Bir müddət əvvəl İspaniyanın Kataloniya əyalətində baş qaldıran separatizm cəhdləri də ikili standartlar siyasətinin Qərbin özünə qarşı çevrilməsinin aydın təzahürü idi. Avropanın sabitliyi və təhlükəsizliyi isə, ilk növbədə, bütün bu tip hadisələrə, dövlətlərin ərazi bütövlüyünün təmin olunmasına ədalətli mövqenin ortaya qoyulmasından keçir. Prezident İlham Əliyev Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi faktını bir daha qaldırmaqla diqqəti məhz bu məsələyə yönəltdi.

Sammitin başqa bir yaddaqalan məqamı cənab İlham Əliyevin çıxışında Ermənistanın işğalçılıq siyasətini bir daha diqqətə çatdırması bu ölkənin baş nazirinin növbəti dəfə publika qarşısında pərt vəziyyətə düşməsinə səbəb oldu. Beləki Paşinyanın Ramil Səfərovun azad olunması ilə bağlı dediklərinə Prezident İlham Əliyevin verdiyi cavab və belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə etməsi Ermənistanın baş nazirinə vurulan tərs şapalaq effekti verdi. Bununla da Paşinyanın bir daha beynəlxalq tədbirlər çərçivəsində siyasi səbatsızlığı sübut olundu və ən əsası o, Prezident İlham Əliyevin səsləndirdiyi tarixi həqiqətlər qarşısında çıxılmaz vəziyyətə salındı.

Paşinyan çıxışında Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycan Ordusunun zabiti Ramil Səfərovla bağlı qərarını tamamilə saxtalaşdırılmış formada təqdim etdi. Belə ki, erməni baş nazir sənəddə, guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia etdi. Lakin məlum olduğu kimi, qeyd olunan məhkəmənin qərarında Azərbaycana qarşı hansısa irqçilik ittihamı yer almayıb. Üstəlik, həmin qərarda Budapeştdə baş vermiş hadisənin fərdi davranış əsasında törədildiyi qeyd olunub və Azərbaycan Respublikasının bununla bağlı məsuliyyət daşıması barədə heç bir fikir yoxdur. Ramil Səfərovun əfvinə gəldikdə isə, Azərbaycan Respublikası Konstitusiyasından irəli gələrək 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən zabitimiz barəsində verilmiş əfv fərmanı birmənalı olaraq beynəlxalq hüquqi razılaşmadan irəli gəlir və dövlətimizin öz üzərinə götürdüyü öhdəliklərin hüquqi çərçivəsindədir. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa etdi.

Azərbaycan Prezidentinin erməni terrorçusu Karapetyanla bağlı söylədikləri isə erməni terrorçuluğu barədə yalnız bir faktdır. "Məzlum millət" pərdəsi arxasında ermənilər nəinki Qafqazda, Azərbaycanda və Türkiyədə, eləcə də Avropa və Amerika ölkələrində də ən qanlı hadisələrə, terrora imza atıblar. XX əsr boyu ermənilərin azərbaycanlılara, türklərə qarşı həyata keçirdikləri terror siyasətinin xronologiyasını xatırlayarkən törədilən vəhşilik və cinayətlərin miqyası, metodologiyası qəzəb doğurmaya bilmir. İkinci Dünya müharibəsi zamanı faşistlərin əlaltısı kimi keçmiş sovet respublikaları ərazisində təxribatçılıq fəaliyyəti ilə məşğul olan, terrorçu fəaliyyət həyata keçirən "Njde" ləqəbli Qaregin Ter-Arutyunyanın 2016-cı ildə Yerevanda altımetrlik heykəlinin qoyulması Ermənistanda faşizmin və terrorçuluğun qəhrəmanlaşdırıldığını göstərən ən böyük faktdır. O cümlədən Dağlıq Qarabağda əsgərlərimiz tərəfindən məhv edilən və Ermənistanda abidəsi qoyulmuş M.Melkonyan ən qanlı terror əməllərinə imza atmış cani idi. Xatırladım ki, Njdenin Rusiyanın Armavir şəhərindəki erməni kilsəsinin ərazisindəki xatirə lövhəsi məhz Azərbaycan Prezidenti İlham Əliyevin məsələyə müdaxilə etməsindən sonra yığışdırıldı.

Erməni terrorçuluğu barədə kifayət qədər danışmaq olar. Prezident İlham Əliyev sadəcə olaraq ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın adını çəkməklə Paşinyana yerini göstərdi, ona əsl terrorçuların kimlər olduğunu xatırlatdı. Beləliklə, Prezident İlham Əliyev növbəti dəfə Ermənistanın baş nazirini beynəlxalq tədbirlər çərçivəsində rəzil duruma saldı. Diqqəti çəkən başqa bir mühüm məqam odur ki, Azərbaycan Prezidenti bu dəfə erməni baş naziri Avropa İttifaqının tədbirində küncə sıxışdırdı.

Ümumiyyətlə, Paşinyanın beynəlxalq tədbirlərdə sərgilədiyi davranış ayrıca müzakirə mövzusudur. Məlumdur ki, siyasətlə məşğul olanların, dövlət başçılarının davranışları, intellekti, peşəkarlığı, mədəni səviyyəsi geniş ictimaiyyət tərəfindən həmişə müzakirə predmetinə çevrilir və nəticə etibarilə bunlar həmin şəxs barədə ictimai rəy formalaşdırır. Liderin nə dərəcədə sistem yaratma qabiliyyətinə malik olması, mövcud qlobal çağırışlara cavabvermə potensialı olan dövlət xadimi statusuna uyğun gəlməsi tam açıqlığı ilə görünür. Əlalxüsus, bu təzadlılıq son vaxtlar Münxen Təhlükəsizlik konfransında, MDB dövlət başçılarının Aşqabadda keçirilən sammitində Ermənistanın baş naziri Nikol Paşinyanın çıxışlarında özünü tam təsdiq etmiş oldu. "Küçə demokratı" olan bu adam etdiyi populist çıxışları, protokoldankənar yersiz replikaları, utopik ideyalara əsaslanan məhdud tarixi bilikləri və əxlaqi keyfiyyətləri ilə belə yüksək tədbirlər üçün yad bir ünsür təəssüratı bağışlayır. Görünən odur ki, həmin tədbirlərdə iştirak edən digər dövlət başçıları da bu kəskin təzadı hiss edir və Ermənistanda kadr probleminin olduğunu dərk edirlər. Bugünkü erməni cəmiyyətində baş verənlər isə Paşinyan hakimiyyətinə adekvatdır. Fikir verin, gündəlikdə olan məsələ Avropa İttifaqı ilə Şərq tərəfdaşlığını əhatə edən ölkələr arasındakı münasibətlərdən və koronavirus pandemiyası ilə mübarizədən gedir. Paşinyan isə öz populist ampluasında, uzun illər əvvəl iki nəfər arasında baş vermiş cinayət hadisəsi ilə bağlı Avropa Məhkəməsinin çıxardığı hökmü təhrif edərək xəstə erməni təbliğatı aparır. Siyasi diskussiyada cənab İlham Əliyevin erməni terrorçuları, rəsmi Yerevanın faşizm ideologiyasını rəsmi dövlət siyasətinə çevirdiyi barədə gətirdiyi əsaslı dəlillərin, tarixi faktların qarşısında Paşinyan aciz qalaraq, diqqəti aktual və qlobal məsələlərdən yayındırmağa cəhd edir. Yəni özü kimi cılız məsələlərlə həlli vacib problemlərdən diqqəti yayındırmaq məqsədi güdür. Düşünürəm ki, cənab Prezidentin başladığı hücum diplomatiyası davam etdirilməli və düşmən hər addımda ifşa olunmalıdır.

Ən əsası isə, Prezident İlham Əliyev Ermənistanın baş naziri N. Paşinyanı diplomatik müstəvidə bir daha yerində oturtmaqla ölkəmizin və xalqımızın mənafeyini, milli maraqlarını qətiyyətlə qorudu. Siyasətdə təsadüfi heç nə olmur. Cənab Prezidentin rəhbərliyi və şəxsi nümunəsi ilə aparılan siyasət sistemli şəkildə ölkəmizin beynəlxalq səviyyədə daha da güclənməsinə səbəb olmaqla, xalqımızın sülhsevər mahiyyətini təbliğ edir.

**Nəsib MƏHƏMMƏLİYEV,**
**Milli Məclisin deputatı**

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli və Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan və Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Böyük Vətən müharibəsinin başlanmasından 79 il ötür

# Dünya tarixinin ən qanlı savaşı

1941-ci ilin 22 iyul günü dünyanın taleyini dəyişəcək an idi. Həmin gün faşist ordusu SSRİ-yə qarşı bütün cəbhəboyu hücumu nəzərdə tutan "Barbarossa" planını işə saldı. Bu, ildırımsürətli əməliyyatın adını faşistlər Müqəddəs Roma imperiyasının imperatoru I Fridrix Barbarossanın adından götürmüşdülər. Plana görə cəmi 3 ay ərzində SSRİ-nin Avropa hissəsi tam tutulmalı idi. Plan alınsaydı, tərəqqipərvər bəşəriyyət addım-addım faşizmin dəhşətli caynaqlarının əsarətinə düşəcəkdi. On minlərlə adamı çox sadə bir səbəbə - milli mənsubiyyətə görə ölümə məhkum edən, qaz kameralarına göndərən bu ideologiyanın hakim olduğu dünyada insanların həyatı necə olacaqdı?! Adam bu barədə heç düşünmək belə istəmir.




"Bu gün tarixi yenidən yazmaq, faşistləri qəhrəmanlaşdırmaq, tarixi həqiqəti təhrif etmək kimi təhlükəli meyillər müşahidə edirik. Biz buna çox ciddi yanaşmalıyıq. İstər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir" deyən Azərbaycan Prezidenti İlham Əliyev yüz minlərlə Azərbaycan övladının qanı bahasına əldə olunmuş faşizm üzərində qələbə ilə bağlı ölkəmizin mövqeyini qətiyyətlə dilə gətirir: "Biz Böyük Vətən müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixin yenidən yazılması, faşizmin və faşistlərin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mövqelərimiz həm tarixi həqiqətə, ədalətə, həm də buna əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar və kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər".

## Stalin bakılı Zorgeyə niyə inanmadı?

Hitler Almaniyasının dünyanın ərazicə ən böyük imperiyasına qarşı "Barbarossa" planını həyata keçirməsi faşistlərin Qərb ölkələrində qazandıqları qələbələrdən irəli gəlirdi. Böyük Britaniya hitlerçilərə qarşı mübarizədə mühüm dayaq nöqtələrini, kommunikasiya xətlərini əlində saxlamaqla müqaviməti davam etdirsə də, Fransa artıq təslim olmuşdu. Beləliklə, Hitler qərbdə öz məqsədlərinə çatdığını güman edirdi. Avropada tam hakim qüvvəyə çevrilməkdən ötrü isə qarşıda yeganə maneə kimi ancaq SSRİ vardı. Ona görə də qüvvələri qəfildən Sovetlər İttifaqına qarşı yönəltdi. SSRİ və Almaniya arasında bir-birinə hücum etməmək haqqında pakt mövcud idi. Amma Stalinin Balkan yarımadasına və Qara dəniz boğazlarına olan iddiaları Hitlerin ciddi narahatlığına səbəb olurdu. Buna görə də o, həmin paktı əhəmiyyətsiz sayaraq, 1940-cı ilin iyununda Vermaxt rəhbərliyinə SSRİ-yə qarşı hücum planı hazırlamaq tapşırığı vermişdi.

Alman qoşunlarının sərhəd boyu toplaşması haqqında kəşfiyyat məlumatları sovet rəhbərliyinə hələ 1941-ci ilin əvvəllərindən daxil olurdu. Həmin ilin 15 mayında məşhur sovet kəşfiyyatçısı, Bakının Sabunçu qəsəbəsində anadan olmuş Rixard Zorge Tokiodan göndərdiyi məlumatda hətta müharibənin başlanacağı 1941-ci il 22 iyun tarixini də dəqiq göstərmişdi. Amma Stalin bu məlumatlara inanmırdı. Hesab edirdi ki, bütün bunlar Almaniyanı SSRİ-yə qarşı yönəltməkdən ötrü Böyük Britaniyanın təxribat cəhdləridir. O, hitlerçilərin SSRİ-yə hücumunu onların Böyük Britaniya üzərindəki qələbəsindən sonra gözləyirdi.

## Tarixin müəmması

Beləliklə, SSRİ qoşunlarının qəfil hücuma qarşı hazırlıq vəziyyətinə gətirilməsi yubanırdı, onun yeni sərhədlərinin möhkəmləndirilməsi işi süni surətdə ləngidilirdi. SSRİ hərb sənayesinin inkişafına, ordunun yenidən silahlandırılması sürətinə görə Almaniyadan çox geri qalırdı. 30-cu illərin repressiyaları da sovet ordusu rəhbərliyini xeyli zəiflətmişdi. Ordunun bir çox yüksək rütbəli zabitləri Stalinin qəzəbinin, hakimiyyət hərisliyinin qurbanına çevrilmişdilər.

Aradan uzun zaman keçəndən sonra indi belə iddialar da var ki, Stalin sovet ordusunu Almaniya ilə sərhəd bölgədə bilərəkdən zəiflətməklə onu müharibəyə bir növ həvəsləndirib. Burada niyyət müharibədə Almaniyaya qalib gəlməklə Şərqi Avropanı, Balkan yarımadasını və Qara dənizdəki boğazları ələ keçirmək olub. Bu, tarix üçün kifayət qədər maraqlı tədqiqat mövzusudur. Amma tarixçilər indiyə kimi Stalinin müharibədən qabaq hansı fikirdə olduğunu müəyyən edən qəti nəticəyə gələ bilməyiblər. Ona görə Almaniyanın SSRİ-yə qarşı qəfil hücumunda tarixin böyük müəmmaları da gizlənir. Bütün hallarda hitlerçilərin 79 il əvvəl başladıqları "Barbarossa" planı tarixin ən böyük hücum əməliyyatı idi. Əməliyyata 4,5 milyon nəfərlik alman ordusu cəlb olunmuşdu. Onlar 2900 kilometrlik sərhədboyu hücuma keçmişdilər. Əməliyyatda 60 min texnikadan istifadə olunurdu.

## Müharibənin taleyini dəyişən döyüş

Alman qoşunları ildırımsürətli müharibə strategiyası ilə sovet ordusuna ciddi zərbələr vurdular. Xüsusən SSRİ-nin qərb sərhədlərində hələ tam komplektləşdirilməmiş hərbi birləşmələr daha yaxşı silahlanmış və müasir döyüş təcrübəsi olan alman qoşunlarının güclü hücumuna tab gətirə bilmədilər. Böyük itkilər verərək ölkənin içərilərinə doğru sürətlə geri çəkilməyə başladılar. Almanlar qışa qədər Arxangelsk-Həştərxan xəttinə çıxmaq ümidində idilər. Hitlerçilər müharibənin elə birinci həftəsində Leninqrada və Kiyevə yaxınlaşdılar. Smolenski ələ keçirdilər. Sentyabr ayında isə Kiyevi tutub, Leninqradı mühasirəyə alaraq bu dəfə də Moskva üzərinə güclü hücuma başladılar. Amma sovet ordusunun təşəbbüsü ələ almaq səyləri bu dəfə səmərə verdi. Alman qoşunları Moskva döyüşündə darmadağın edilərək geri atıldılar. Noyabrın 15-də onların daha böyük qüvvə ilə paytaxt üzərinə ikinci güclü həmləsi oldu. Bəzi yerlərdə hətta Moskvaya 5 kilometrə qədər yaxınlaşa bildilər. Bununla belə müdafiə döyüşlərində sovet ordusu hitlerçiləri taqətdən saldı. 1941-ci il dekabrın 5 və 6-da isə faşistlər üzərinə əks-hücum başlandı. Onlar 100-250 km geri oturduldu. Sovet əsgərlərinin Moskva döyüşündəki və 1942-ci ilin qış hücumundakı qələbəsi Almaniyanın ildırımsürətli müharibə planını boşa çıxardı və müharibənin taleyini, demək olar ki, həll etdi. Bu qələbə hitlerçilərin işğal etdikləri başqa ölkələrdə müqavimət hərəkatına güclü təkan verdi, anti-Hitler koalisiyasını möhkəmləndirdi, faşist dövlətləri blokunu zəiflətdi. Beləliklə, 1945-ci ilin 9 mayına qədər davam edən müharibə Hitler Almaniyasının acı məğlubiyyəti ilə tamamlandı.

Müharibədə həmin vaxt dünyada mövcud olan 73 dövlətdən 62-si və dünya əhalisinin 80 faizi iştirak edib. Hərbi əməliyyatlar 40 dövlətin ərazisində və dünyanın bütün okeanlarının sularında aparılıb.

Müharibə dövründə dünya üzrə 110 milyon insan səfərbər edilib. Ümumi itkilər 60, bəzi məlumatlara görə 65 milyon nəfər olub. Antifaşist koalisiyasının hərbi itkiləri 16 milyon, mülki itkiləri 30 milyon nəfər, Almaniya və onun müttəfiqlərinin hərbi itkiləri 9 milyon, mülki itkiləri 8 milyon nəfərdən çox olub. Antifaşist koalisiyasında ən çox hərbi itki SSRİ-nin olub - 11 milyon nəfər. Almaniya isə təkbaşına 5 milyon 318 min əsgərini itirib.

Müharibə dövründə sovet ordusunun təqribən 5 milyona yaxın, Almaniyanın isə 4 milyon 100 min əsgəri əsir götürülüb. Müharibənin sonunda SSRİ-də 3 milyon 486 min 206 hərbi əsir olub. 1956-cı ildə sonuncu əsir ölkəsinə yola salınıb. SSRİ-nin ölüm düşərgələrində saxlanılan əsirlərin 518 min 520 nəfəri dünyasını dəyişib. 2 milyon 967 min 686 nəfər ölkəsinə qaytarılıb.

Müharibənin iştirakçı dövlətlərə vurduğu maddi zərər 4 trilyon dollar təşkil edib. Bunlar da maraqlı faktlardır.

## Dünyanı özünə vətən bilənlərin savaşı

Tarixin mahiyyəti belədir: aradan illər keçəndən sonra bəzi məsələlərə baxış bucaqları dəyişir. Yeni rəylər, münasibətlər, iddialar formalaşır. Bunu Hitler Almaniyasının SSRİ üzərinə hücumuna, faşizm üzərində qazanılmış qələbəyə, hətta Böyük Vətən müharibəsi adına münasibətdə də görürük. Kimin necə düşünməsindən asılı olmayaraq bu müharibə xeyrin şərə, bəşəriyyətin aydın gələcəyini düşünənlərin bu gələcəyi zülmətə boyamaq istəyənlərə qarşı savaşı idi. Sonda xeyir şərə, işıq qaranlığa qalib gəldi. Və bu qələbə həm də yüz minlərlə Azərbaycan övladının canı-qanı, əziyyəti hesabına əldə edildi.

Onlar bu müharibədə Azərbaycan adından vuruşurdular. Təkcə keçmiş SSRİ-ni deyil, ümumilikdə dünyanı və onun bir parçası kimi Azərbaycanı da faşizm bəlasından qoruyurdular. Bu, bütün dünyanı özünə vətən bilənlərin apardığı bir savaş idi. Tarixin hər bir dövründə insanların dünyanı özlərinə vətən bilmələrinə, onu pisliklərdən, fəlakətlərdən, ziyanlı düşüncələrdən mühafizə etmələrinə ehtiyacı var. Ona görə də Böyük Vətən müharibəsi anlayışı tarixin bütün dövrlərində öz dəyərini, əhəmiyyətini qoruyur. Bu gün də Azərbaycanda elə bir ailə, nəsil tapılmaz ki, Böyük Vətən müharibəsi onun taleyinə təsir göstərməmiş olsun. Faşizm üzərindəki qələbədə o ailənin, nəslin nümayəndələrinin fədakarlığı görünməsin.

Azərbaycan işğalçı faşistlərlə mübarizəyə elə müharibənin ilk günündən - 22 iyun 1941-ci ildən qoşuldu. 681 mindən çox azərbaycanlı faşizmə qarşı mübarizəyə səfərbər olundu. Onda Azərbaycanın ümumi əhalisi 3,4 milyon idi. Ölkəmizdən düz 681 min nəfər cəbhəyə yollanmışdı. Onların sıralarında 10 min qadın da vardı. Cəbhə xətti üçün Azərbaycanda 15 min tibb işçisi, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı. Azərbaycan ərazisində 87 batalyon, 1123 özünümüdafiə, 5 piyada dəstələri yaradılmış, 6 milli diviziyası döyüşlərdə iştirak etmişdi. Onlar Brest qalası, Leninqrad, Moskva, Stalinqrad, Qafqaz uğrunda döyüşlərdə böyük qəhrəmanlıq göstərmişdilər. Kursk, Berlin uğrunda döyüşlərdə iştirak etmiş, Ukraynada, Krım yarımadasında vuruşmuş, Qırmızı Ordunun tərkibində Pribaltikanı, Şərqi Avropanı azad etmişdilər.

Bu müharibədəki şücaətinə görə Azərbaycandan 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adını qazanmışdı. General Həzi Aslanov daxil olmaqla 3 nəfər bu ada iki dəfə layiq görülmüşdür. Sovet İttifaqı Qəhrəmanı adını alanlar arasında 42 nəfər milliyyətcə azərbaycanlıdır.

Azərbaycanlı əsgər və zabitlər Fransada, İtaliyada, Krımda, Belarusda getdikcə genişlənən partizan hərəkatında da fəal iştirak etmişlər. Bəzi partizan dəstələrinin komandirləri məhz azərbaycanlılar idi.

## "Hər şey cəbhə üçün! Hər şey qələbə üçün!"

Azərbaycandan orduya gedənlərin 300 mindən çoxu bu müharibədə həlak oldu, itkin düşdü. Ön cəbhədə vuruşan əsgər və zabitlərimizlə yanaşı, yüz minlərlə soydaşımız - yaşlı, qadın, uşaq da qələbə naminə arxa cəbhələrdə gecə-gündüz min bir məşəqqət çəkdi. Onda Bakı və Cənubi Qafqaz SSRİ iqtisadiyyatının əsas enerji mənbəyi idi. Keçmiş ittifaq ərazisində neft hasilatının 80 faizi Azərbaycanda çıxarılırdı. Alman komandanlığı da Bakı neftinə xüsusi maraq göstərirdi. Qafqaz uğrundakı döyüşlərdə almanların əsas hədəfi var idi - Bakını və onun neft-qaz sənayesini nəzarətə götürmək.

Amma döyüşçülərimizin qəhrəmanlığı hitlerçilərə bu mənfur niyyətlərinə çatmağa imkan vermədi. Müharibə illərində Azərbaycan neftçiləri bütün SSRİ-nin yanacaq ehtiyacının 80 faizini təmin edirdilər. Müharibənin elə ilk ilində cəbhəyə 23,5 milyon ton neft göndərilmişdi. Böyük Vətən müharibəsi dövründə hərbi ehtiyaclar üçün göndərilən neftin ümumi həcmi isə 75 milyon ton idi. Sovet ordusunun hərbi təyyarələri akademik Yusif Məmmədəliyev kimi alimlərimizin Bakı neftindən aldığı yüksək keyfiyyətli yanacaq hesabına havaya qalxır, faşistlərin başına od ələyirdi.

Böyük Vətən müharibəsi başlayandan sonra bütün respublika "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ilə çalışırdı. Bütün sahələr cəbhənin maraqlarına qulluq edirdi. Ordunun təminatı üçün Azərbaycandakı müəssisələr əvvəllər burada istehsal olunmayan böyük miqdarda qida, geyim, ayaqqabı və digər mal növlərinin istehsalına başlamışdı.

Böyük Vətən müharibəsinin ilk dövründə Azərbaycanın yüngül sənaye müəssisələri Qırmızı Ordunun ehtiyacları üçün təxminən 30 növ məhsul istehsal edirdilər. Azərbaycan həkimlərinin, tibb işçilərinin Böyük Vətən müharibəsi dövründəki fədakar əməyini də xüsusilə qeyd etmək lazımdır. Cəbhə xəttində minlərlə yaralını həyata qaytaran tibb işçilərimizin qəhrəmanlığı ilə yanaşı, Bakıda və ölkə daxilində onlarca hərbi hospital da fəaliyyət göstərirdi. Rəsmi məlumatlara görə, Azərbaycanın xəstəxanalarında yarım milyon sovet əsgəri müalicə edilmişdi. Onların bir çoxu müharibədən sonra da Azərbaycanda qalaraq talelərini bura bağlamışdılar.

Milyonlarla insanın həyat və sağlamlığını itirməsi, çox böyük miqyasda sosial-iqtisadi itkilər, dağıntılar, dünyaya və bəşəriyyətə qarşı böyük ziyanlarla tamamlanmış Böyük Vətən müharibəsinin, ümumilikdə faşizmə qarşı mübarizənin anlatdığı çox həqiqətlər var. Bu həqiqətlərin ən alisi isə sülh, bəşəri dəyərlər uğrunda çalışmağın bütün dövrlərdə insanlığın ali missiyası olmasıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

Koronavirus: mütəxəssis məsləhəti

# Virusa qalib gəlmək üçün hər kəs mübarizə aparmalıdır

### Şərq təbabətinin banisi İbn Sina bütün dövrlər üçün aktual olan "Panika və qorxu xəstəliyin yarısıdır" deməklə həqiqətləri anlatmağa çağırmışdır

Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına yoluxma halları son günlər artıb-azalmaqdadır. Bu da o deməkdir ki, ölkədə virusa yoluxma faktında ciddi artım olmasa da, dəyişikliklər var. Burada koronavirus infeksiyasına yoluxma hallarının artması səbəbləri ilə bağlı sosial şəbəkələrdə müəyyən mülahizələr irəli sürülür və suallar verilir. İnfeksiyaya yoluxmanın sayının məhz indi artmasının bir sıra səbəbləri olmamış deyil.



Maraqlıdır, bu "göydəngəlmə bəla" haqqında indi hər kəs danışır, pandemiyadan başı çıxan da, çıxmayan da, xəstəsi olan da, olmayan da. Bir sözlə, hərə məsələyə öz dünyagörüşü müstəvisindən yanaşır: ona inananlar və özlərini qoruyanlar da var, inanmayıb karantin rejiminin şərtlərini, Operativ Qərargahın qəbul etdiyi qayda-qanunları pozaraq cərimələnənlər, yəni yoluxmanın sayının artmasına səbəb olanlar da. Demək, bütün sahələrdə olduğu kimi, tibbdə də əsas söz mütəxəssislərindir. Respublikamızda infeksiya xəstəlikləri üzrə mütəxəssislər isə kifayət qədərdir.

Azərbaycan Tibb Universitetinin dosenti, yoluxucu xəstəliklər üzrə mütəxəssis - infeksionist Elza Orucova ilə onlayn söhbətimizdən də aydın oldu ki, məsələyə ciddi yanaşılmaması vəziyyətin növbəti mərhələdə kritik həddə yüksəlməsinə səbəb ola bilər: "Hesab edirəm ki, sözügedən infeksiyaya görə ölkəmizdə aparılan əhatəli, çoxsaylı önləyici mübarizə tədbirləri sayəsində yaxın vaxtlarda virus xəstəliktörətmə qabiliyyətini büruzə vermək iqtidarında olmayacaq. Son günlər ölkəmizdə COVID-19 virusunun artım tempi sürətlənib. Bu da ciddi narahatlıq yaratmaya bilməz. Xatırladaq ki, yoluxma öncə xariclə əlaqəli idi. Fikrimcə, bunun əsas səbəbi bəzi vətəndaşların xəstəliyin ciddiliyinə varmaması, "evdə qal" tövsiyəsinə yetərincə əməl edilməməsidir. Qoruyucu maskalar ya geyilmir, ya da düzgün istifadə edilmir. Şəxsən mən işə gedib-gələrkən yollarda bunun şahidi olmuşam. Xəstəliyin əksər hallarda asimptomatik və yüngül formada keçdiyini nəzərə alsaq, yayılma təhlükəsini anlamaq olar. Yoluxma əmsalını minimuma endirmək üçün isə sosial məsafə mütləq gözlənilməlidir".

Həkim qeyd edir ki, əvvəllər sağlam şəxslərin tibbi maskadan istifadəsi barədə fikir müxtəlifliyi hökm sürürdü. Belə ki, onların maska geyinməsinin əleyhdarları əksəriyyət təşkil edirdi və bu da nəticə etibarilə əhali arasında xeyli çaşqınlığa səbəb oldu. Son günlər isə etibarlı mənbələrdən maskanın sağlam şəxslərə də faydalılığı barədə fikirlərə prioritet verildi. Bu virus ölçüsünə görə olduqca böyükdür (diametri 400-500 nanometrdir). Bu baxımdan məntiqə varsaq, maska prinsipcə çox gözəl filtr rolunu oynayır.

Maraqlı məqamlardan biri də insanların bu bəladan qorxmalarına baxmayaraq, ondan qorunmaq üçün tətbiq edilən qaydalara əməl etməmələridir. Bu yerdə Şərq təbiblərinin hökmdarı sayılan psixodiaqnostikanın banisi İbn Sinanın kəlamından yan keçmək olmaz: "Panika və qorxu xəstəliyin yarısıdır".

Həkimin fikrincə, bu günə qədər maksimal effekti tam təmin edən spesifik müalicə və profilaktik vasitə olmasa da, dünya alimləri səylə elmi-tədqiqat işləri aparırlar. Sırf vaksinə gəldikdə isə ÜST rəsmisinin bu barədə ən son fikri hələ ki, aktuallığını itirməyib: "Heyvanlar üzərində peyvəndlərin tətbiqi uğurla nəticələnir. Növbəti mərhələ isə onun insan üzərində aparılmasıdır. İnsanlar üzərində aparıldıqdan sonra bu barədə danışmaq olar. "COVID-19" yeni tip infeksiya olduğuna görə onun bütün bölümləri - etiologiya, patogenez, klinik mənzərə, profilaktika və s. tam öyrənilməyib. Bu, təbii ki, uyğun peyvəndin hazırlanmasına da aiddir. Bundan da təhlükəli və ciddi infeksion xəstəliklər var ki, onlar hələ "idarə olunmayan infeksiyalar" qrupunda qalmaqda davam edirlər. Başqa sözlə, onlara qarşı peyvənd icad edilməyib. Düşünürəm ki, hələlik tibbi vaksin hazır olmasa da, ÜST tərəfindən tövsiyə edilmiş mənəvi vaksinimiz var: "Ortaq insanlığımız ortaq vaksinimizdir".

Bir çox tibb mütəxəssisləri hesab edirlər ki, infeksion xəstəliklərin yayılmasında yüksəliş, zirvə nöqtəsi və eniş kimi qanunauyğunluqlar mövcuddur. Həmsöhbətimiz Elza Orucova da bu qənaətdədir ki, sözügedən infeksiyaya görə ölkəmizdə aparılan əhatəli, çoxsaylı önləyici mübarizə tədbirləri sayəsində yaxın vaxtlarda virus xəstəliktörətmə qabiliyyətini büruzə vermək iqtidarında olmayacaq.

ÜST-ün tövsiyələrinə əsasən bu bəladan qurtulmağın əsas yolları olan evdə qalma, izolyasiya və şəxsi gigiyena (əl və respirator) kimi üsullara tam məsuliyyətlə yanaşmaq lazımdır. Qədim yunan mütəfəkkiri Epikürün təbirincə desək, "insan olmaq önündəkinin məsuliyyətini hiss etməkdir". Həkim də bunun məcazi deyil, ciddi faktor olduğunu dilə gətirir: "Bu günlərdə Nazirlər Kabinetinin Operativ Qərargahının yenidən karantin rejiminin iyunun 21-dən iyulun 5-dək olan müddətə sərtləşdirilməsinin zərurətdən irəli gəldiyini, vəziyyətin ciddiliyini xəbər verir. Yuxarıda qeyd etdik ki, dövlət başçısının Azərbaycan vətəndaşlarının sağlamlığını hər şeydən öndə tutması onun humanist siyasətinin nəticəsidir. Gərək biz vətəndaşlar da öz üzərimizə düşən borcumuzu yerinə yetirək. Pandemiya ilə mübarizədə birlik nümayiş etdirək. Bu mənada gəlin yekdilliklə cavabdehlik hissini unutmayaq və ciddi olaq! Dövlətimiz tərəfindən qəbul edilən bütün əhəmiyyətli qərarlara, tövsiyələrə, göstərişlərə, çağırışlara riayət edək".

Mütəxəssislər bu qənaətə gəliblər ki, koronavirus infeksiyası təkcə ağır formada deyil, 80-85 faiz yüngül, yaxud da simptomsuz cərəyan edir. Ona görə də xəstəlik əsasən ayaqüstü keçirilir. O, əksər hallarda qrip və digər kəskin respirator virus infeksiyaları altında pərdələnir. Yəni standart qrip əlamətləri ilə özünü göstərir. Kontagiozluq, yəni yoluxduruculuq əmsalı orta hesabla 3 faizdir.

Həkim E.Orucova da əsaslı mənbələrə istinad edir: "...Koronavirus və SARS-ın genomunu kəşf edən çinli alim Corc Qao Avropanın yol verdiyi ən böyük səhvlərdən danışarkən vurğuladığı maraqlı fikir var: "Biz heç bir dərman preparatı strategiyasından istifadə etmədik. Çünki bu virusdan müalicə edən xüsusi dərman və vaksin yoxdur. Biz maskalanmış bir virusla üz-üzə gəldik və bütün xəstələri təcrid etməklə, simptomu olmayanlara maska geydirməklə qalib olduq, bu kənardakılara qəddar görünə bilər. Avropa və ABŞ-ın ən böyük səhvi bundadır ki, insanlar maska taxmırlar. Simptomsuz və xəstəliyin gizli dövründə olanlar maska taxsa, virus yayılmaz, zəif simptomları olan şəxslər və yüngül xəstələr ev şəraitində müalicə alarlar.

Hər gün verilən rəsmi məlumatlardan da məlumdur ki, yoluxma sayı artsa da, digər ölkələrlə müqayisədə bizdə artım ildırım sürəti ilə getmir. Təbabətin qızıl qaydası var: "öncə profilaktika, sonra müalicə". Bizdə yoluxma riskini azaltmaq üçün dövlət səviyyəsində ciddi tədbirlər görülür. Dövlətimiz vaxtında lazım olan qaydaları tətbiq etdi. Hər kəs tələb olunan qaydalara düzgün və tam riayət etsə, bunun öhdəsindən gələcəyimizə tam əminəm. Mən realist olduğum qədər məsələyə optimist yanaşıram, bunun qarşısı alınacaq və alınır da. Xəstəlik ciddidir, lakin qorxu, təşviş, panika ilə xəstəliyi şişirdənlərə, təhrif olunmuş formada məlumat verənlərə qarşıyam, çünki "qorxu virusun özü qədər təhlükəlidir". Həmçinin gerçəkdən bu cür hallar immuniteti xeyli zəiflədir".

Yeri gəlmişkən, xəstəlik əsasən yüngül, orta ağır və az hallarda isə ağır gedişli ola bilər (ağır gediş ölümə bir işarədir). Həkim də xüsusi qeyd edir ki, yüngül formada klinik mənzərə KRVİ şəklində özünü büruzə verdiyinə görə bunları fərqləndirmək çox çətindir. Yekun sözü test deyir. Əsas əlamətlər bunlardır: qızdırma, quru öskürək, boğazda ağrı, nəfəsalmanın çətinləşməsi və ya nəfəs darlığı, təngnəfəslik, yorğunluq, əzələlərdə ağrı, az hallarda isə asqırma, burun axıntısı, burun tutulması, baş ağrısı, baş gicəllənməsi, qarında ağrı, ürəkbulanma və diareya.

Hazırda 100 faiz radikal effekti təmin edən spesifik müalicə və profilaktik vasitə (vaksin) yoxdur. Bu səbəbdən patogenetik və simptomatik terapiyaya üstünlük verilir.

Doğrudur, antiviral vasitələrin axtarışı yönümündə ciddi elmi-tədqiqat işləri, klinik təcrübələr aparılır və müsbət nəticələr də var. Hətta satışda olan bəzi dərmanların koronavirusa qarşı müsbət təsir etməsi barəsində ümidverici məlumatlar da az deyil. ABŞ epidemioloqları vərəm əleyhinə peyvəndin koronavirus infeksiyasına qarşı ölümcül təsirini öyrənərkən məlum olub ki, peyvənd həyata keçirilməyən ölkələrdə COVID-19-a daha çox insan yoluxub: "Ən ümdəsi, özünütəcrid, sosial məsafə və təmiz əllər (əl+respirator gigiena) və üstəlik, qoruyucu maska, izdihamlı yerlərdən çəkinmək etibarlı qoruyucudur. Bütövlükdə praktik gigiyenanın sadə bir düsturunu hər zaman əlimizdə rəhbər tutmalıyıq: "Təmizlik sağlamlığın rəhnidir".

Bəli, onu da unutmayaq ki, "sağlam orqanizm sağlam immunitet, xəstə orqanizm zəif immunitetdir". Bu prinsipdən çıxış edərək, virusa yoluxmamaq üçün immun qabiliyyətimizi müxtəlif təbii vasitələrlə yüksəltməliyik: bol maye qəbulu, vitaminlərlə və zülallarla zəngin tam dəyərli qidalanma, fiziki tərbiyə, təbii biostimulyatorlar, normal yuxu rejimi və s. Yeri gəlmişkən, təcrübə göstərir ki, insan gündə 7-8 saat yuxuya vaxt ayırırsa, bu, bircə gün ən azı yarım saat az olsa, nəticə etibarilə bütün iş fəaliyyətinə mənfi təsir göstərəcək.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***




### İndi evdə qalıb yaşamaq zamanıdır...

***Əvvəli 1-ci səh.***

## Zamanın su axarında

Belə bir təsəvvür mövcuddur ki, hər şərdə bir xeyir də vardır. Yetər ki, soyuqqanlıqla, səbirlə bütün olub-bitənləri, dünyada baş verənləri analiz edib düzgün istiqamətə yönəltməyi biləsən. Təhlükədən sovuşmağı, anlarını daha mənalı və dəyərli etmək üçün hər cür şəraiti fürsətə çevirməyi bacarasan...

Çox yox, cəmi bir neçə ay əvvələ qədər insanlar zamanın sürətindən, sanki qısalmasından şikayət edirdilər...

Elə bil vaxt bir göz qırpımında keçirdi və ailəmizlə, əzizlərimizlə zaman keçirməyə fürsət tapmırdıq. Tapanda isə bunu daha çox virtual aləmə sərf edir, yenə də doğmalarımızdan "uzaq" bir dünyada yaşayırdıq... Getdikcə bəşəriyyət qloballaşırdı, amma insanlar mənən və ruhən bir-birindən ayrılırdı...

Bir çox dəyərlər, keyfiyyətlər tarixin səhifələrinə gömülürdü...

Qəribədir ki, məhz təhlükəli virus sayəsində yaşam şəklimizə bir daha baxmağa, onu köhnə dəyərlər və hazırkı tələblər üzərində yenidən biçimləndirməyə məcbur olduq...

Elə bu sayədə də insan bir anlıq virtual səs-küydən uzaqlaşıb mənəviyyatına boylandı, ruhi aləminə nəzər saldı. Dünyadakı missiyasının nə olduğunu sual etdi, bütün maddi dəyərlər üçün edilən cidd-cəhdlərin heçliyinə əmin oldu. Ona da vaqif oldu ki, insana Tanrı tərəfindən ərməğan edilən ən dəyərli hədiyyə mənəvi zənginlik, insanların həyatını davam etdirməsi üçün qəbul edəcəyi hər hansı xeyirxah qərardır...

## Möhtəşəm əsərlərin, şeirlərin, nəğmələrin də məhz bu dönəmdə yazıldığının şahidi olacağıq

Elə indi insanlığın yer üzündən silinməsi, bəşəriyyətin yoxolma təhlükəsini uzaqlaşdırmaq üçün həmin xeyirxah missiyanı yerinə yetirmək anıdır. Evdə qalmaq, dünyanı evə sığdırmaq məqamıdır...

Bu isə elə də çətin deyil, əksinə...

Cəmi bir neçə ay əvvəl əksəriyyətimizə arzu kimi görünən bir çox fürsətlər ayağımıza gəlib. İndi ailəmizə, doğmalarımıza ayırmaq üçün bolluca zamanımız var. Bizə uşaqlarımızla birlikdə oynamaq, film seyr etmək, mütaliəyə vaxt ayırmaq kimi ruhi qida bəxş edilib. O da şübhəsizdir ki, bu çətinlikləri atladıb normal həyata dönəndə ən möhtəşəm əsərlərin, şeirlərin, nəğmələrin, film ssenarilərinin də məhz elə bu dönəmdə yazıldığının şahidi olacağıq

Deyirlər, sel gələndə ona qarşı mübarizə aparmaqdansa, istiqamətini elə dəyişdirmək lazımdır ki, sənin torpaqlarını suvararaq münbitləşdirsin...

Bəli, koronavirus gözəgörünməz, təhlükəli düşməndir, amma insanın da qüdrəti sonsuzdur. Və o, yer üzünün ən ali varlığı olaraq bu dünyada yaşamaq şansını heç bir zaman itirməyəcək, bütün çətinliklərlə savaşaraq genetik kodunu min illərin o üzünə ötürməyi bacaracaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





# Ədəbiyyat





● Məhəmməd Hadi - 140

**Hər bir xalqın tarixində elə dühalar olur ki, onların əsrarəngiz sənət möcüzələri əbədi yaşayaraq neçə-neçə nəsillərin bədii-estetik zövqünü oxşayır. Azərbaycanın ədəbiyyat tarixi belə şəxsiyyətlərin adı və fundamental ədəbi irsi ilə zəngindir. Onların hər birinin yaradıcılığı dövrünə obyektiv güzgü tutaraq tarixi həqiqətləri bu gün də göz önündə canlandırır. Həmin ədəbi dühaların sırasında görkəmli Azərbaycan şairi Məhəmməd Hadinin xüsusi yeri var.**



# Hürriyyətə və ülviyyətə vurğun ömür

Özünəməxsus dəst-xətti ilə Azərbaycan ədəbiyyatında yeni yaradıcı təmayülün - romantizmin əsasını qoyan Məhəmməd Hadi həqiqət əsiri olaraq qəlbinin hayqırtılarını qələmə alan və gözəlliyə tapınan fitri istedadlı mütəfəkkir şair idi. Həyat və yaradıcılığı, əsərləri, ədəbi irsi ədəbiyyatşünaslıqda, bədii-estetik fikir tarixində, dərslik, metodiki vəsait və məqalələrdə geniş tədqiq olunan, öyrənilən Məhəmməd Hadi nəinki Azərbaycan, dünya romantizminin də görkəmli simalarındandır. Onun bədii təxəyyül və təfəkkürü, eləcə də yaradıcılıq inciləri sənət tariximizin əvəzsiz nümunələri kimi bu gün də layiqli qiymətini alır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu il 5 dekabr tarixli "Məhəmməd Hadinin 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı dahi şairin ədəbi irsinin yaşadılması və öyrənilməsi, eləcə də indiki və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Sərəncamın preamblua hissəsində qeyd olunduğu kimi, "Məhəmməd Hadi XX əsr Azərbaycan poeziyasında romantizmin ədəbi cərəyan kimi təşəkkülü və inkişafında mühüm xidmətlər göstərmişdir. Şərq bədii-estetik fikir tarixinin dərin bilicisi olan bu qüdrətli qələm sahibi bütün istedadını doğma vətəninin mədəni tərəqqisi uğrunda mübarizəyə həsr etmişdir. Şairin dövrün mürəkkəb sosial-siyasi mənzərəsini dolğun əks etdirən, ictimai həyat hadisələrini fəlsəfi mövqedən işıqlandıran və eyni zamanda, özünün bənzərsiz sənətkarlıq xüsusiyyətləri ilə seçilən, maarifçilik ideyaları ilə zəngin əsərlərində elmin və mədəniyyətin təbliği başlıca yer tuturdu. Xalqları oyanışa və istiqlaliyyət uğrunda mübarizəyə səsləyən Məhəmməd Hadi azadlığı cəmiyyətin və şəxsiyyətin həyatının mənası sayaraq onu daim romantik vüsətlə tərənnüm etmişdir".

Bugünün baxış bucağından o da aydın görünür ki, faciəli ömrün qəmli dastanını yazan istedadlı şairin söykəndiyi həqiqətin bir mənası olub: xalqını azad, xoşbəxt, firavan, ölkəsini isə sivil dövlətlər sırasında görmək! "Yox millətimin imzası imzalar içində" - deyən Məhəmməd Hadinin şair qəlbinin azad və müstəqil dövlət arzusu ilə alışıb-yandığı göz önündədir. O, qəlbən tapındığı bu həqiqətə qovuşmaq yolunda dövrünün ən sərt qadağaları, sədləri ilə üzbəüz dayansa da, geri çəkilmədi, sınmadı.

Əsərləri insanları haqqa, ədalətə və ən əsası, ruhani yüksəkliyə, kamilliyə aparan yolun cazibəsi kimi olduqca dəyərlidir. Hadi poeziyasında ictimai mövzular - eləcə də milli azadlıq, vətənpərvərlik və humanizm ideyaları xüsusi yer tutur. Bununla belə, onun üçün mövzu məhdudluğu da tamamilə yaddır: Məhəmməd Hadi romantizm ədəbi cərəyanının banisi və onun təşəkkülündə sözünü demiş kamil şəxsiyyət kimi bu gün də ehtiramla anılır. Onun şeirləri poetik məzmun və quruluş etibarilə Məhəmməd Füzulinin poeziya məktəbinin təsirinə də məruz qalıb.

Hər bir millətin və ölkənin, ümumiyyətlə, bəşəriyyətin tərəqqisini ictimai azadlıqda görən şair yazırdı:

*Hurriyyət ilə millət edər kəsbi-məali,*
*Avropalı hürriyyət ilə tapdı kəmali.*
*Əlbəttə, əsarətdə olur məhz əhali,*
*Hürriyyət sərbəstlik imrani-vətəndir.*

Gudayi-vətən olmaq, sürgünlərdə ömür sürmək, sanki bəzi Azərbaycan şairlərinin alın yazısı olub. Əfsuslar olsun ki, Hadi də bu acı taledən qaça bilməyib. Ötən yüzilliyin əvvəllərində uzaq ellərdə sürgün həyatı keçirən, mühacir poeziyasına töhfəsini verən, nəhayət, ədəbiyyatımızda yeni ədəbi cərəyanın əsasını qoyan Hadinin əsl adı və soyadı isə Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu olub. Gənclik illərində isə o, Hadi (Ərəbcədən tərcümədə mənası doğru yol göstərən ??deməkdir) təxəllüsünü seçib.

Məhəmməd Hadi 1879-cu ildə Şamaxı şəhərinin Sarıtorpaq məhəlləsində, tacir ailəsində doğulub. İbtidai təhsilini məhəllə məktəbində, şamaxılı Molla Səmədin yanında alıb. Sonralar şair Abbas Səhhətin atası Əliabbas əfəndinin təsis etdiyi məktəbdə oxuyub, kiçik yaşlarından ərəb və fars dillərini mükəmməl mənimsəyib.

Nənəsinin vəfatından sonra Məhəmməd Hadi qohumu Mustafa Lütfinin himayəsində yaşamalı olub və ondan ərəb dilini mükəmməl öyrənib. Şairin yaxın qohumlarından olan Mustafa Lütfi bəy onun təlim-tərbiyəsinə böyük əmək sərf edib. Məhəmməd Hadi gənclik illərində ilahiyyat elmləri ilə bərabər, dünyəvi elmləri, xüsusilə dil, ədəbiyyat, fəlsəfə, məntiq, tarixi də dərindən öyrənməyə müvəffəq olub. Hələ gənc yaşlarından xaricdə təhsil almaq istəsə də, imkansızlıqdan bu arzusu qəlbində nisgilə, qubara çevrilib.

1902-ci il yanvarın 31-də Şamaxıda baş vermiş dəhşətli zəlzələdən sonra əksər şamaxılılar kimi Məhəmməd Hadi də doğma şəhərini tərk etməyə məcbur qalaraq Kürdəmirə köçüb. Xarakterinə daha yaxın sahədə özünü sınamaq qərarına gələrək şamaxılı Ağa əfəndi ilə birlikdə bəzi maarifpərvərlərin ianəsi ilə məktəb açaraq tədrisə başlayıb. Maarifpərvər fəaliyyəti Kürdəmir ziyalılarının da nəzərini cəlb etdiyindən, yaşadığı məkan üzrə Zaqafqaziya müəllimlər qurultayına nümayəndə seçilib, 1904-cü ildə Tiflisdə keçirilən həmin qurultayda iştirak edib.

Kürdəmirdə yaşadığı 1902-1906-cı illərdə maddi imkanları nisbətən yaxşılaşan Məhəmməd Hadi əvvəlki qaydada mütaliəsini davam etdirib. Kəlküttədən "Həblül-mətin", İstanbuldan



"Sabah", Bakıdan "Həyat", Bağçasaraydan "Tərcüman" qəzetlərini gətirdərək oxuyub. Mühərrir kimi Məhəmməd Hadinin ilk qələm sınaqlarından biri "Həyat" qəzetində çıxan "Bəyani həqiqət" yazısıdır. Əlinə yenicə qələm almış gəncin yaradıcılığa "həqiqət" anlayışından başlaması da maraq doğurmaya bilməz. Məqaləsində şair millətin cəhalətə yuvarlanmaması üçün elmin, təhsilin, eləcə də həqiqət axtarışlarının vacibliyini ürək yanğısı isə diqqətə çəkib.

Görkəmli ədibin mətbuata gəlişi 1905-ci ilin ortalarına təsadüf edir. Həmin dövrdə o, "Həyat", "Füyuzat" və "Bürhani-Tərəqqi" qəzetlərində elmə, maarifə çağıran şeirlər, habelə mənəvi intibah məsələlərinə dair silsilə məqalələr yazırdı. Məhəmməd Hadi 1906-cı ildə Əli bəy Hüseynzadənin dəvəti ilə "Füyuzat" məcmuəsində çalışmağa başlayıb və buradakı osmanlı müəlliflərindən fərqli olaraq ictimai həyata dair yazılara geniş yer verib. "Füyuzat" məcmuəsi bağlandıqdan sonra o, bir müddət "Təzə həyat" və "İttifaq" qəzetlərində işləməli olub.

1907-1908-ci illərdə Məhəmməd Hadinin imzası artıq Azərbaycanın görkəmli şairləri sırasında seçilirdi. "Nəğmeyi-əhrarənə", "Duşizeyi-hürriyyətə", "Gül, sevdiyim, gül", "Ədvari-təcəddüd", "Əsari-inqilab" və digər şeirlərində Məhəmməd Hadi bilavasitə və ya dolayısı ilə milli azadlıqdan, istiqlaldan danışırdı. 1908-ci ildə çapdan çıxmış "Firdovsi-ilhamat" kitabına şairin "Cəhalətimdən şikayət", "Bu da bir həqiqət", "Şeyxlərə-işanlara", "Söfiyə-zahidə" və s. şeirləri, məqalələri, tərcümələri daxil edilmişdir.

Maarif, mədəniyyət, milli oyanış, dil, din və s. bu kimi problemlərə geniş yer ayıran qəzetlərdə Ə.Hüseynzadə, Ə.Ağayev, H.Zərdabi, N.Nərimanov, Ə.Haqverdiyev kimi təcrübəli qələm sahibləri ilə yanaşı, Hadinin də imzası görünməyə və oxucuların diqqətini cəlb etməyə başlamışdı. "Həyat" qəzetində dərc olunmuş yazılarında o, əsərlərini oxuduğu ziyalıların, xüsusilə də Əli bəy Hüseynzadənin müzakirə obyektinə çevirdiyi məsələlərə açıq münasibət bildirirdi. Bəzən bu mövzulara uyğun mənzum parçalar verməsi Hadinin poeziyaya olan böyük marağını da göstərirdi. Onun nəzm və nəsr nümunələrində mətbuat, elm və mədəniyyətin xalq üçün faydası, yeni nəslin milli ruhda tərbiyəsi, qadın azadlığı, dünyəvi elmlərin, habelə cəhalətdən qurtulmağın vacibliyi və digər mövzular mühüm yer tuturdu.

Hürriyyətpərvərlik ideyası da dahi şairin yaradıcılığında mühüm yerlərdən birini tutur. Əsərlərində burjua kapitalist mühitini şiddətlə damğalayan Hadi azadlıq deyərək var səsilə hayqırırdı. Onun düşüncəsi, varlığı, yaradıcılığı həm də vətən övladının, gənclərin taleyi ilə sıx bağlıdır. Elə mövzu yoxdur ki, şair ona müraciət edərkən vətənini və vətən övladını dilə gətirməsin. Vətən anlayışı sanki Hadi poeziyası üçün əbədi ilham mənbəyi idi.

Hadi şəxsiyyət, fikir və vicdan azadlığının tərənnümçüsü idi. O, vicdan azadlığını gur səslə tərənnüm edirdi. Bitməz, tükənməz bulaq suyu qədər saf axan fikri, xəyalı gözü-könlü tox olan şairi ilhama gətirirdi. Hadi özünü bahar fəslində bülbül kimi cəhcəh vuran, min bir çiçəkdən ilham alan quşa bənzədərək "Dünya bağı mənim gülüstanımdır" deyirdi.

Vətənpərvər şairimiz Hadi bütün həyatı boyu millətini ali mərtəbələrdə görmək amalı ilə yaşayıb, bu istəyə qovuşmaq üçün dönmədən mübarizə aparıb. Əcdadı ulu, qanı saf, tarixi qədim bir xalqın övladı olduğunu dərk edən Hadi soydaşlarını ayıltmaq üçün bu həqiqəti onlara dönə-dönə təlqin etməyə çalışırdı. Yer üzünü millətlərin yarış və vuruş meydanı hesab edən Hadi ona da inanırdı ki, bu çarpışmalarda türk xalqları mütləq qalib olacaq.

Hadinin tarix etibarı ilə məlum olan ən son əsəri "Kor soqqur" şeiridir. "Hərarətli şeir, yaxud, qızdırmalı halımda saçmalarım" adlı məhşur əsərində şairin mövcud quruluşa və ümumiyyətlə istismar dünyasına qarşı üsyan səsi ucalıb. 1919-cu ilin ortalarında şair Bakıdan uzaqlaşaraq ömrünün axırına qədər mühacirətdə yaşayıb.

Şairin hansı səbəbdən, harada və nə vaxt vəfat etməsi ilə bağlı mübahisəli fikirlərə rast gəlinir. Bəzi tədqiqatçılar şairin 1919-cu ildə, bəziləri 1920-ci ilin əvvəllərində vəfat etdiyini iddia edirlər. Lakin xatirələrdən və şairin müasirlərinin yazdıqlarından belə rəyə gəlmək olur ki, Hadi 1920-ci ilin may ayında vəfat edib.

Məhəmməd Hadinin əkdiyi toxumlar isə çoxdan cücərərək bəhrələr verib. Azərbaycan şeirinə romantizmi gətirərək qanadlandıran, ona can verən böyük ədəbi düha axı necə unudula bilər? Dünyaya hər yeni nəsil gəldikcə, şeirimizin çeşidli çalarları araşdırıldıqca, M.Ə.Sabirdən, H.Caviddən, A.Səhhətdən danışıldıqca, Məhəmməd Hadinin də zəngin ədəbi irsi düşüncələrdə canlanacaq. Poeziyamızın sənətkarlıq sirləri açıldıqca, mahir sənətkarın adı da daim hörmətlə, ehtiramla çəkiləcək.

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***

● Mətbuat tarixindən: "Həyat" - 115

# Vətəni evi bilənlərin qəzeti

**"Həyat" qəzeti nəşrə başlayanda 1905-ci il iyunun 7-si idi. Azərbaycan mətbuatına Bakıda ilk gündəlik ana dilli qəzet kimi qədəm qoyan "Həyat" tarixin çox ziddiyyətli, təlatümlü vaxtlarında dövran sürdü.**



Rusiya imperiyasında mürəkkəb hadisələr baş verməkdəydi. İctimai ab-hava dərin böhrandan xəbər verir, siyasi gərginlik gündən-günə yüksəlirdi. Həmin ilin 9 yanvarında Peterburqda dinc nümayişçilər güllələbaran edilmişdi. Qanlı bazar adı ilə tarixə düşən bu faciə Romanovlar sülaləsinin əsrlərdir sürən hakimiyyətini kökündən sarsıtmışdı. Çar Rusiyasının əksər ərazilərində inqilabi şüarlar səsləndirilir, tətillər, mitinqlər keçilirdi. İri sənaye mərkəzlərində vəziyyət daha kəskin idi. Bu şəhərlər arasında Bakının da adı vardı. Tarixdən məlumdur ki, 1905-ci ilin iyun və iyul aylarında Bakıdakı sənaye müəssisələrinin dörddə üç hissəsini tətil bürüdü. Çar hakimiyətinin zəifləməsi imperiyanın müstəmləkəsinə çevirdiyi ölkələrdə milli kimlik, azadlıq duyğularının alovlanmasına rəvac verdi.

Azərbaycanın bu qarışıq zamanda başının üstünü bir bəla da aldı. Ermənilərin qəddar Daşnaksütyun Partiyasının üzvləri daha da fəallaşalaraq Zaqafqaziyanın azərbaycanlılar yaşayan hissələrində təxribatlar, qətliamlar törətməyə başladılar. 1905-ci ilin fevral ayının ilk ongünlüyündə Bakıda qırğınlar törədildi. O ağır günlərdə Azərbaycan ziyalıları milləti xilas etmək üçün çarə axtarırdılar. Onlar zamanın tələblərini nəzərə alaraq təbliğat vasitəsinə ciddi ehtiyac olduğunu da gündəmə gətirirdilər. 1905-ci il martın 15-də milyonçu Hacı Zeynalabdin Tağıyevin mənzilində toplaşmış ziyalılar bir sıra əhəmiyyətli məsələlərdən bəhs edərkən də gündəlik qəzet nəşrinin vacibliyindən danışdılar. Dövrün görkəmli ziyalıları Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu 1905-ci il aprelin 16-da Peterburq baş Mətbuat İdarəsinə ünvanadıqları ərizədə "Həyat" adlı qəzet nəşr etmək istəyini bildirdilər. Böyük nüfuzu olan Hacı Zeynalabidin Tağıyevin müdaxiləsi bir çox çətinliklərin aradan qalxmasında misilsiz rol oynadı. Və 1905-ci il aprelin 22-də Qafqaz canişini Vorontsov Daşkov "Həyat"ın nəşrinə icazə verdi.

Çox ağır, məsuliyyətli bir zamanda mətbuat meydanında görünən "Həyat" dövrün qabaqcıl, millətsevər, vətənpərvər insanlarının məqsədini, məramını ifadə edirdi. "Həyat"ın əsas qayəsi vətənə, xalqa, millətə xidmət idi. İlk sayında məsləki, ideya istiqamətləri belə şərh olunurdu: "...qəzetimiz həyatın mənafeyi-həqiqiyyəsinə, ovsaf və şəriyyəsinə agah bulunduğundan həyati-ictimaiyyeyi-milliyyəmizin nigahbanı olub daxildən və ya xaricdən hər cür tərəqqi və təkamülə qarşı zühur edən maniə və müşkülata müqabilə" edəcəkdir.

Qəzetin proqram məqaləsində Əhməd bəy Ağaoğlu yazırdı: "Əgər biz irəliləmək və həyati birliyə malik bir millət olmaq istəyiriksə, biz hər şeydən öncə müsəlman olaraq qalmalıyıq. Bizim irəliləmək istəyimiz, həyat şərtlərinin yaxşılaşdırılması istiqamətində olan səylərimiz islam qanunlarına vabəstə olaraq əldə edilə bilər".

Nəriman Nərimanov "Həyat"ın 30 iyul 1906-cı il tarixli sayında yazırdı: "Vətən insanın evidir. Necə ki, evində hər bir şeyə ixtiyarın var, necə ki, evin bədbəxtliyi səni qəm dünyasına mübtəla edir, xoşbəxtliyi şad edir, elə də özün üçün Vətən bildiyin məmləkətdə ixtiyarın gərəkdir ola, onun bədbəxtliyi gərək ürəyini dağlaya, xoşbəxtliyi səni şad-xürrəm edə".

Yeni mətbu orqanın naşiri Əlimərdan bəy Topçubaşov, redaktorları Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu idi. Ancaq "Həyat"ın 102-ci sayında Əhməd bəy Ağaoğlu bu qəzetdən ayrıldığını bəyan etdi: "Sevgili qardaşım Əli bəy! Təvəqqe edirəm ki, qəzetinizdə məlum edəsiniz ki, mən bundan sonra "Həyat" müdirliyindən xaric olub "Həyat" ilə heç bir əlaqəm yoxdur. Əhməd bəy Ağayev". Bundan sonra da Əli bəy Hüseynzadə "Həyat"da çalışdı. Əhməd bəy ictimai-siyasi fəaliyyətini davam etdirdi. Bir müddət sonra isə başqa bir qəzetin - "İrşad"ın nəşrinə nail oldu.

1905-ci il iyunun 7-dən 1906-cı il sentyabrın 3-dək "Həyat"ın 325 sayı işıq üzü gördü. Qəzetin 1905-ci ildə 131, 1906-cı ildə isə 194 sayı oxuculara təqdim olundu.

Bu, gündəlik ictimai-siyasi, iqtisadi və ədəbi qəzet qısa müddətdə Azərbaycan ziyalılarını və ədəbi-ictimai və siyasi fikir tarixində özünəməxsus yer tutan şəxsiyyətlərini ətrafında topladı. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Həsən bəy Zərdabi, Abbas Səhhət, Məhəmməd Hadi, Üzeyir bəy Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə və başqaları qəzetin daimi yazarlarından idi.

"Həyat" ilk vaxtlarından Çar Senzura İdarəsinin nəzarətində idi. Qəzetdə dərc olunan mühüm yazılar rus dilinə tərcümə edilib Tiflis Senzura Komitəsinə göndərildi. Nəşrə başlamasından ay yarım sonra erməni senzorların təhriki ilə Senzura Komitəsinin sədri Qallel "Həyat"ın fəaliyyətinin dayandırılması üçün Qafqaz canişinliyinə müraciət etdi. Senzura Komitəsi qəzeti və onun redaktoru Əhməd bəy Ağaoğlunu "panislamist ideyaların alovlu pərəstişkarı", "bütün müsəlmanların xəlifəsi sayılan türk sultanının nüfuz və qüdrətinin artmasının tərəfdarı" adlandırırdı. Senzura Komitəsinin Qafqaz Canişinliyinə müraciətində Ə.Hüseynzadə və Ə.Ağaoğlunun "islamın təmizliyi və ilkinliyini qorumaq üçün" çarizmə və ruslara qarşı barışmaz mövqedə dayandığı xüsusi qeyd olunurdu. Eyni zamanda, "Həyat"ın yaradıcı heyəti "qatı islamın tərəfdarları" kimi qələmə verilirdi.

Azərbaycanın düşmənlərinin "Həyat"ın fəaliyyətinə son qoymaq üçün apardıqları mübarizə nəticəsiz qalmadı. Ancaq var olduğu qısa müddətdə bu mətbu orqan mətbut tariximizdə böyük iz qoya bildi. Təkcə Qafqazda deyil, Volqaboyunda, Orta Asiyada, İranda və Türkiyədə yayılan "Həyat" geniş məkanda milli oyanışda mühüm rol oynadı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Xəbər

## Milli Kitabxana "Əbdürrəhim bəy Haqverdiyev-150" adlı elektron məlumat bazasını virtual rejimdə təqdim edib

**Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, nasir, publisist və teatr təşkilatçısı, tanınmış ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi tamam olur.**

Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Əbdürrəhim bəy Haqverdiyev-150" adlı elektron məlumat bazası rəsmi sənədlər, həyat və yaradıcılığı, həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxslər Əbdürrəhim bəy Haqverdiyev haqqında, əsərləri, xatirəsinin əbədiləşdirilməsi, filmoqrafiya, fotoqalereya bölmələrindən ibarətdir.

Elektron məlumat bazasında yazıçının Azərbaycan, türk, rus və ingilis dillərində əsərləri, audiokitablar, dövri mətbuatda və məcmuələrdə çap olunan məqalələri, səhnələşdirilmiş əsərləri, xatirəsinin əbədiləşdirilməsinə dair materiallar və digər sənədlər təqdim olunur.

## Görkəmli yazıçı haqqında vikipediyada özbək dilində bölmə istifadəyə verilib

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə yazıçı, dramaturq, ədəbiyyatşünas, tərcüməçi, Əbdürrəhim bəy Haqverdiyev haqqında Vikipediya Beynəlxalq Elektron Ensiklopediyasında özbək dilində bölmə istifadəyə verilib.**

"Abdurahimbek Haqberdiyev" adlı bölmədə ədibin həyatı, yaradıcılığı, yaratdığı əsərlər, bütövlükdə ədəbi fəaliyyəti haqda məlumatlar öz əksini tapıb.

AMM-dən verilən məlumata görə, "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamının icrası ilə əlaqədar il ərzində bu ölkədə bir sıra tədbirlərin keçirilməsi planlaşdırılıb.

● Yeni nəşrlər

## Azərbaycanlı alimin "Şumer və türk dastanlari" kitabı Avropada 8 dildə çap olunub




Tanınmış şair, filologiya elmləri doktoru İslam Sadığın "Şumer və türk dastanları" kitabı ötən il Türkiyədə nəşr olunmuş, Rusiya və Almaniyada da yayımlanmışdı. Bu il isə əsər Avropa xalqlarının - ingilis, fransız, alman, italyan, ispan, danimarka, polyak, portuqal və rus dillərində çap olunaraq yenidən işıq üzü görmüşdür.

Azərbaycanda şumerşünaslığı bir elm kimi yaratmış və formalaşdırmış İslam Sadığın bu kitabı Şumer və türk dastanlarının müqayisəli təhlilinə həsr edilmiş ilk tədqiqat işidir. Kitabın Avropada 8 dildə nəşri Azərbaycan elminin və bütövlükdə türkologiyanın uğurudur.

## Zərdabişünaslığa yeni töhfə

Azərbaycan öz tarixi müstəqilliyinə qovuşandan ölkəmizdə hər il 22 iyul - Azərbaycan Milli Mətbuat Günü böyük təntənə ilə qeyd edilir. Sovet hakimiyyəti illərində mətbuata tətbiq olunan qadağalar 1998-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən ləğv ediləndən sonra Azərbaycanda söz və mətbuat azadlığına daha münbit şərait yaradılmışdır. Bu günlərdə çapdan çıxmış "Zərdabi "Ədəbiyyat qəzeti"nin səhifələrində" ("Mütərcim" nəşr) adlı kitabın ilk səhifəsində yer alan Prezident İlham Əliyevin Azərbaycan mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimində nitqində deyildiyi kimi: "Ulu Öndərimiz Heydər Əliyev mətbuata daim böyük diqqətlə yanaşırdı. Mətbuatın maddi-texniki bazasının mıhkəmləndirilməsinə, ümumiyyətlə mətbuata qayğısı həmişə hiss olunurdu. Mən çalışıram ki, öz tərəfimdən bunu davam etdirim".

Əminliklə deyə bilərik ki, mətbuat təəssübkeşlərinin şahidliyi ilə bu sözlər tam reallığa çevrilmişdir. Təsadüfi deyil ki, indi bu tarixi günün bayram təntənəsinin




səsi-sorağı indi nəinki, respublikamızda, hətta dünya mətbuatının ən inkişaf etmiş ölkələrində belə eşidilir. Qürurla deyə bilərik ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş mətbuata dövlət qayğısı Prezident İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfinfən uğurla davam etdirilir.

Ölkəmizdə bu tarixi günün bayram təntənəsinə hər bir yazar öz yaradıcılıq töhfəsi ilə qoşulanda daha xoş olur. Bu mənada 1872-ci il iyulun 22-də Azərbaycanda milli mətbuatın bünövrəsini qoyan Həsən bəy Zərdabi haqqında AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı Əzizə Ələkbərovanın tərtibçiliyi ilə ərsəyə gəlmiş "Zərdabi "Ədəbiyyat qəzeti"nin səhifələrində" kitabı daha diqqətçəkəndir. Məlumdur ki, 1875-ci ildə nəşrə başlayan ilk qəzetimiz "Əkinçi" xalq arasında maarifçilik ideyalarının müjdəçisi olmuşdur. Xürafatın və savadsızlığın həyata meydan oxuduğu bir zamanda bu qəzet xalqı maarifləndirmək uğrunda mübarizə meydanına girmiş və işıqlı fikirləri qısa müddətdə hər yanda özünə tərəfdarlar taplamışdı.

Çox xoşdur ki, "Əkinçi" qəzetinin 145 illiyi ilə əlaqədar hazırlanan kitabda Azərbaycan mətbuatı tarixində əvəzsiz xidmətləri olmuş Həsən bəy Zərdabinin həyat və fəaliyyətinə dair "Ədəbiyyat qəzeti"nin 1934-cü ildən 2016-cı ilə qədər saylarında dərc olunmuş tədqiqat əsərləri toplanmışdır. Xronoloji ardıcıllıqla verilmiş bu əsərlər tarixilik və elmi baxımdan çox gərəklidir. Kitabın elmi redaktoru Əməkdar incəsənət xadimi, filologiya üzrə fəlsəfə doktoru Məhəbbət Mehdiyeva, rəyçi filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfovdur.

Xatırladaq ki, zamanın müxtəlif dövrlərində qüdrətli qələm sahibləri tərəfindən Həsən bəy Zərdabinin həyat və fəaliyyətinə dair mətbuatda işıq üzü görən və kitaba daxil edilən bu yazılar jurnalistlər və mətbuat tarixi ilə məşğul olan gənc araşdırıcılar üçün də zəngin istinad mənbəyidir. "Ön söz"ün müəllifi filologiya üzrə elmlər doktoru Paşa Kərimovun dediyi kimi, "Əminəm ki, bu kitab zərdabişünaslığın gələcək inkişafına öz töhfəsini verəcəkdir"

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İstəyirəm

İstəyirəm, dünya
üzündən
Tez çıxıb gedəsən,
İlim-ilim itib
Bir daha görünməyəsən!
Ürəkləri, könülləri
Sıxmayasan, incitməyəsən!
İstəyirəm,
İnsanlar rahat nəfəs
alsın,
Hava darlığından
boğulmasın.
Hər gün səhər işə
getsinlər,
Əvvəlkitək çalışsınlar,
Qurub-yaratsınlar,
Hər axşam evlərinə
tələssinlər!
İstəyirəm, adamlar taxdıqları
Maskaları tez çıxarsınlar,
Bir daha onu
taxmasınlar,
maskalanmasınlar.
Bundan belə
bir daha
Aralarında məsafə
saxlamasınlar!
Çiyin-çiyinə verib
Yeni zirvələr fəth
etsinlər!
Uşaqlar, gənclər dərsdən,
təhsildən
qalmasınlar.
Hünərlə, zəfərlə
İnsanlığın adını
Göylərə ucaltsınlar!
İstəyirəm, ölkələr,
dövlətlər
arasında
Sərhədlər bir daha
bağlanmasın.
İnsanlar azad quştək
İstədikləri
Ölkələrə, şəhərlərə
Gedib-gəlsinlər!
İstəyirəm, insanlar
"COVID-19" adlı
virusun,
xəstəliyin
Yaratdığı məzarlığın
Sakinləri olmasınlar!
Adamlar öz doğmalarından,
əzizlərindən
Ayrı düşməsinlər!
Ən ağır vaxtda
Bir-birinin yanında
olsunlar,
Köməyə yetişsinlər!
İstəyirəm,
konsert salonları,
Yarış, idman meydanları
Əvvəlki izdihamını yaşasın!
Küçələr, yollar,
şəhərlər
İnsan axını ilə
Hər gün, hər an
Dolsun, boşalsın -
- Boş qalmasın!
İstəyirəm,
Toy-düyünlər,
çal-çağırlar,
öz adəti
axarıyla
Davam etsin!
Qızlar "Vağzalı"yla
Gəlin köçsünlər,
Oğlanlar bəylik
Taxtına çıxsınlar!
Nəsillər arasında
Məsafə uzanmasın,
kəsilməsin!
Koronavirus, bilirəm,
Bir gün gəldiyin
kimi
Bir gün də çıxıb
gedəcəksən,
Dünyamızı tərk
edəcəksən!
Amma yaman qorxutdun
bizi,
Bir az da seyrəltdin
sıralarımızı.
Çox yerə yozduq
gəlişini.
Az da qınamadıq
Özümüz özümüzü!
Ancaq səndən
bir istəyim var.
Heç olmasa, bir
yaxşı
işinlə
Göstər öz gücünü,
Nəyə qadir
olduğunu.
Yu, təmizlə
günahlarını,
İnsanları evdə
saxladığın,
Dustaq etdiyin
kimi!
İstəyirəm, bundan
sonra
Bütün pislikləri,
Bəd əməlləri dustaq
edəsən,
buraxmayasan
Dünya adlı evimizin
Kandarından içəri!

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# "Gennadi Brijatyuk və onun mənəvi dəyərlər dünyası (1935-2008)" adlı kitab işıq üzü görüb

Mənəvi Dəyərlərin Təbliği Fondu yarandığı gündən mədəni irsimizin, mənəvi dəyərlərimizin, azərbaycançılıq ideologiyasının təbliği və təşviqi istiqamətində bir sıra fəaliyyətləri həyata keçirməkdədir. Eyni zamanda dəyərlərimizin gənclər arasında təbliğinə töhfə vermiş bir sıra şəxsiyyətlər haqda əsərlərin, mədəniyyətimizdə xüsusi yeri olan tarixi-dini abidələrin tanıdılması, erməni təcavüzünün geniş auditoriya kütləsinə çatdırılması məqsədilə xarici dillərdə nəşrlərin işıq üzü görməsində yaxından iştirak edir.







Bu məqsədlə 2019-cu ildə fond tərəfindən ölkəmizdə rəssamlıq sənətinin inkişafında xüsusi dəstxəti olan Əməkdar rəssam Gennadi Brijatyuk haqqında Azərbaycan dilində kitab nəşr edilmişdir. Qeyd edək ki, dahi rəssam haqqında kitabın müəllifi Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevdir.

Kitabda rəssamın yaradıcılığının geniş təhlili ilə yanaşı, onun yaradıcılığı boyu ərsəyə gətirdiyi əsərlərin əksəriyyətinin reproduksiyaları verilmişdir. Müəllifin fikrincə, G.Brijatyuk əvvəldən axıra kimi yazılmış həyat və sənət qanunlarını pozmuş və sonda da Azərbaycan təsviri sənətində çox dərin iz qoyub getmişdir. Bu gün çoxlarına sönmüş kimi görünən bu "mənəvi ocaq" isə əsl "Brijatyuk dünyası"nın dəyərini bilən bir çoxları üçün həm onun sağlığında, həm də sonradan bədii axtarışlarında yol xəritəsi rolunu oynamışdır. Çağdaş rəngkarlığımızın tanınmış simalarından çoxunun gerçəkliyə, milli bədii-estetik dəyərlərə və rəng plastikasına münasibətlərində "Brijatyuk ruhu" görünməkdədir desək, yanılmarıq. Eləcə də onun çağdaş rəssamlığımızın milli ruhda inkişafına böyük təsiri olmuşdur. Rus əsilli azərbaycanlı rəssam 1992-ci ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı fəxri adını almışdır. Əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Müasir İncəsənət Muzeyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Moskva Rəssamlar İttifaqı, Rusiya Mədəniyyət Nazirliyində, habelə Bakının, Fransanın və Türkiyənin müxtəlif qalereyalarında, Azərbaycan və dünyanın digər ölkələrində şəxsi kolleksiyalarda saxlanılır.

Z.Əliyevin görkəmli rəssama həsr olunmuş kitabında Brijatyukun müxtəlif illərdə çəkdiyi "Bahar", "Yay motivi", "Köhnə şəhər", "Neft mədənlərində", "Qırx pilləkən", "Qırmızı damlı ev", "Qürub çağı", "Mücərrəd kompozisiya", "Sarı paltarlı qız", "Düşüncələr", "Qadın güllə", "İlğım", "Mavi ovqat", "Analıq", "Mükalimə", "Laylay" və s. kimi bir çox rəsm əsərləri yer almışdır. Onun əsərlərində təbiət nə qədər romantik olsa da, süni ideallaşdırmadan çox uzaqdır. Elə ilk gündən onun arzusu da təbiəti təbii, bər-bəzəksiz təqdim etmək olmuşdu. Bunun üçün o, təbiətin qoynunda müşahidələr aparmaqdan usanmazdı. Elə rəssamın təsvir dilinin əsasını da canlı naturadan aldığı təəssürat və onun təfsiri təşkil edir. Onun qənaətincə, əsərdə görüntüyə gətirilənlərin sona qədər tanınan olması önəmli deyildi. Bu mənada rəssamın əsərlərində görünənlərin yaradıcı təhlilindən sonra onların bədii tutum alması üçün tapdığı dekorativ-miniatür ruhlu rənglər də təbiətdə gördüyünün dəqiq oxşarı yox, ona ekvivalent idi". Rəssamın əsərlərinə diqqət etsək, bədii-estetik cəhətləri zənginləşdirməklə yanaşı, eyni zamanda milli bədii ənənələrə məxsus dəstxət yaratmağa çalışdığını da görə bilərik.

Mənəvi Dəyərlərin Təbliği Fondu və Z.Əliyevin müəllifliyi ilə ərsəyə gətirilmiş bu kitabda rəssamın bütün həyat yoluna nəzər salınmaqla yanaşı, onun Azərbaycan rəssamlıq sənətinin inkişafı və zənginləşdirilməsindəki rolu da vurğulanmışdır. G. Brijatyuk yaratdığı rəsm əsərlərində tarixi abidələrimizi, zəngin mədəniyyətimizi əks etdirən motivlərə geniş yer ayırmışdır. Elə bu səbəbdəndir ki, Əməkdar rəssamın dəyərli əsərləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Ümidvarıq ki, rəssamın həyat və yaradıcılığına həsr olunmuş bu kitab da Gennadi Brijatyuk yaradıcılığının və Azərbaycan rəssamlıq sənətinin qiymətləndirilməsinə bir töhfə olacaqdır.

***Rəşid PAŞALI,***
***Mənəvi Dəyərlərin Təbliği Fondunun aparıcı məsləhətçisi***

# Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə daha 100 mənzil verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə daha 100 mənzil təqdim edilib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mənzillərdən 53-ü Abşeron rayonunun Məmmədli kəndindəki yeni yaşayış binalarından, 47-si Bakının Hövsan qəsəbəsində inşa olunan yaşayış kompleksindən alınıb. Bütün mənzillərdə müasir yaşayış şəraiti yaradılıb.

Mənzillərin təqdim edilməsi tədbirlərində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov və nazirliyin Aparatının rəhbəri Fuad Musayev iştirak ediblər.

Mənzillərin təqdim olunması zamanı qeyd olunub ki, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı nəticəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır, sosial proqramlar ildən-ilə genişlənir. Dövlət başçısının tapşırığına uyğun olaraq bu il də həssas qruplarla bağlı nəzərdə tutulmuş bütün sosial proqramlar tam icra olunaraq onların əhatə dairəsinin daha da genişləndirilməsi təmin edilir.

Eyni zamanda, şəhid ailələrinin və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı uğurla davam etdirilir. Onlara təqdim edilən mənzillərin sayı ildən-ilə əhəmiyyətli dərəcədə artır. Buna misal olaraq, şəhid ailələrinə və müharibə əlillərinə 2018-ci ildə nazirlik tərəfindən 626 ədəd, 2019-cu ildə 934 ədəd mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığı əsasında bu il ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Onlardan 100 mənzil öz sahiblərinə təqdim edilir. Bu il üçün nəzərdə tutulan 1500 mənzil və fərdi evdən 300-ü artıq verilib.

Ümumilikdə isə indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7900-ə yaxın mənzil və fərdi ev təqdim edilib.

Çıxış edən şəhid ailəsi üzvləri, müharibə əlilləri vətəndaş rifahının təminatı istiqamətində atılan mühüm və ardıcıl addımlardan razılıqla bəhs edərək həyat şəraitlərinin yaxşılaşdırılması üçün aparılan işlərə və yeni mənzillərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyinin birgə məlumatı

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli qərarına əsasən Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq olunacaq.

Dövlət İmtahan Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq mərkəz tərəfindən iyunun 24-də və 25-də keçirilməsi nəzərdə tutulan imtahanların şəhər və rayonlar üzrə siyahısında dəyişiklik edilib və sərtləşdirilmiş karantin rejimi tətbiq olunan şəhər və rayonlarda imtahanlar keçirilməyəcək. Bu şəhər və rayonlarda imtahanlar sərtləşdirilmiş karantin rejimi başa çatdıqdan sonra təşkil olunacaq.

İyunun 24-də və 25-də imtahan keçiriləcək rayon və şəhərlər, imtahanda iştirak etməli olan şəxslər və imtahanların növləri ilə DİM-in saytında tanış olmaq olar.

Şagirdlər (abituriyentlər) imtahana buraxılış vərəqəsini DİM-in saytından çap edə bilərlər.

Ciddi karantin rejimi tətbiq olunmayan digər şəhər və rayonlar üzrə imtahanların (o cümlədən əvvəlki illərin məzunları üçün qəbul imtahanlarının) ictimaiyyətə əvvəlcədən məlumat verilməklə növbəti həftəiçi günlərində keçirilməsi planlaşdırılır.

Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyinin birgə razılığına əsasən, ictimai sağlamlığın qorunması ilə bağlı həyata keçirilən tədbirlərə uyğun olaraq 9 illik və 11 illik orta təhsil bazasında kolleclərə, eləcə də ali təhsil müəssisələrinə sənəd verməyən şagirdlər buraxılış imtahanlarında iştirak etməyə bilərlər.

Bu imtahanlarda iştirak etməyən 9 və 11-ci sinif məzunları üçün əlavə qeydiyyat tələb olunmadan sentyabr ayında yenidən buraxılış imtahanları təşkil olunacaq və həmin şəxslərin yekun qiymətləndirilməsi aparılaraq onlara attestat veriləcək.

Xatırladaq ki, həmişə olduğu kimi, cari ilin məzunları bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər. Əvvəlki illərin məzunları isə şəxsi kabinetlərində faktiki yaşadıqları ünvanı qeyd etdikləri halda, yaşadıqları ünvanın aid olduğu yerə uyğun, əks halda, şəxsiyyət vəsiqəsində qeyd olunmuş ünvanın aid olduğu yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər. Bərdə rayonunda yerləşən məktəblərin isə 9-cu sinif şagirdlərinin ümumi sayı hərəkət intensivliyinin azaldılması məqsədilə iki imtahan gününə bölünüb. Cədvəldə bu hal müvafiq olaraq hissələrlə adlandırılıb. Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixlərdə imtahan verirlər.

# Ermənistanda Paşinyana etimad azalıb

## Baş nazir hakimiyyətini qorumaq üçün radikal addımlar atır

***Əvvəli 1-ci səh.***

Vətəndaşımızla zor dilində danışmalıyıq?"

Pandemiya dövlət idarəçiliyində Paşinyan iqtidarının bacarıqsız olduğunu növbəti dəfə sübut etdi. Fövqəladə vəziyyət elan edildi, iqtisadiyyat dayandırıldı, ancaq infeksiyanın qarşısını almaq üçün həmin dövrdən səmərəli istifadə etmək üçün heç bir iş görülmədi. "168.am" nəşri yazır ki, komendantlıq özü üçün kağız üzərində qalan qərarlar qəbul etdi. Vurğulanıb ki, hakimiyyətdəkilərin özləri də pandemiyaya qarşı mübarizəni iflasa uğratdıqlarını görürlər. Lakin təkəbbürləri bunu qəbul etməyə və kömək üçün mütəxəssislərə müraciət etməyə imkan vermir.

Respublikaçılar Partiyasının nümayəndəsi Armen Aşotyan isə Paşinyanın hakimiyyətə gələndən bu günə kimi heç vaxt Ermənistanın gələcəyi ilə maraqlanmadığını bildirib. Onun sözlərinə görə, bu gün koronavirusla bağlı fövqəladə rejimin uzadılması ideyası əsasən müstəsna siyasi motivlərə malikdir: "Çünki hazırda ölkədən əhalinin artan narazılığı, dialoq və müxalif qüvvələrin birləşməsi Nikol Paşinyanı qorxuya salmaqdadır. Fövqəladə vəziyyət rejiminin iyun ayında uzadılmasını əsaslandıracaq başqa bir şey yoxdur. Aydındır ki, Paşinyan fövqəladə vəziyyət rejimini tətbiq etməklə vətəndaş və siyasi qüvvələrin siyasi azadlıqlarından, o cümlədən sərbəst toplaşmaq, mitinq və nümayiş azadlıqlarından tam istifadə etmək imkanına mane olur".

Ölkədə fövqəladə vəziyyət rejiminin uzadılması motivinin yalnız siyasi xarakter daşıdığını bildirən Aşotyan, bütün bunlara baxmayaraq, Paşiyanın xilasının mümkünsüzlüyünü də gizlətmir. Onun sözlərinə görə, əslində, bu gün Nikol Paşinyan koronavirusla mübarizə və ya ölkədə sosial-iqtisadi fəaliyyətin bərpası ilə deyil, yalnız öz gücünün gücləndirilməsi ilə məşğuldur: "Bütün bunlara baxmayaraq, koronavirus böhranı onun nüfuzuna ağır zərbə vurmuş oldu. Ona görə də Nikolun bu gün də özünü xalqın baş naziri kimi qələmə verib yenidən yardım diləməsi ona elə də bir şans verməyəcək. Bundan əlavə, bir müddət əvvəl Paşinyanın güc strukturları rəhbərlərinin dəyişməsi də başadüşüləndir. Çünki Nikol artıq xalqdan ümid gəlməyəcəyini anlamaqdadır və ona görə də ölkənin güc strukturlarında öz adamlarını yerləşdirməklə öz gücünü gücləndirməyə cəhd edir".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Pandemiyanın yeni təhlükəli mərhələsi başlayıb




Dünya yeni növ koronavirus pandemiyasının yeni və çox təhlükəli mərhələsinə qədəm qoydu. Bunu mətbuat konfransı zamanı Ümumdünya Səhiyyə Təşkilatın baş direktoru Tedros Adhanom Gebreyesus deyib. Onun sözlərinə görə, ÜST Cənubi və Şimali Amerika, həmçinin Cənubi Asiyada və Yaxın Şərqdə çox sayda yeni yoluxma halları barədə məlumatlar alır.

## ABŞ-da etirazçılar Corc Vaşinqtonun heykəlini dağıtdı



ABŞ-ın Portlend şəhərində etirazçılar ölkənin ilk prezidenti Corc Vaşinqtonun heykəlini uçurub.

Trend-in məlumatına görə, 20 nəfərdən ibarət qrup heykəlin üzərinə ABŞ bayrağı ataraq yandırıb. Daha sonra qrupun sayı çoxaldıqca heykəlin uçurulmasına qərar verilib. Etirazçılar abidənin yerinə 1619 rəqəmini yazıblar. Bu tarix Amerikaya qulların ilk dəfə gətirildiyi ili simvolizə edir.

Polis insidentlə bağlı araşdırmalara başlayıb.

## Qazaxıstan beynəlxalq aviareysləri tədricən bərpa edir




COVID-19 pandemiyasına görə digər ölkələrlə hava əlaqəsini kəsən Qazaxıstan dünəndən tədricən uçuşları bərpa etməyə başlayıb.

TASS-ın verdiyi məlumata görə, ölkənin Səhiyyə Nazirliyinin tövsiyələrinə və epidemioloji vəziyyətə uyğun olaraq, 20 iyun tarixindən, ilk olaraq altı dövlət - Gürcüstan, Çin, Tailand, Türkiyə, Cənubi Koreya və Yaponiyaya aviareyslər bərpa edilib.

Qazaxıstanın Sənaye və İnfrastruktur inkişafı Nazirliyinin yaydığı məlumata görə, beynəlxalq istiqamətlərə uçuşların sayı hava nəqliyyatı ilə bağlı mövcud hökumətlərarası müqavilələrə və hər bir marşrutda təyyarələrin kommersiya yüklənməsinə görə təşkil olunacaq.

Xatırladaq ki, ölkədə 16 351 COVID-19 infeksiyasına yoluxub, 10 411 xəstə sağalıb, 113 nəfər vəfat edib.

## İndoneziyada 10 nəfər itkin düşüb



İndoneziyada mühərrikli qayığın batması nəticəsində 10 nəfər itkin düşüb.

Bu barədə "France Press"ə xəbər verir.

Məlumata görə, içində 16 nəfərin olduğu qayıq Anak Krakatau vulkanı yaxınlığında Sunda boğazında güclü dalğaların təsiri ilə çevrilib. İndoneziyanın axtarış və xilasetmə agentliyinin nümayəndəsi Məhəmməd Yusif Lətif bildirib ki, 6 nəfər xilas edilib, digər 10 nəfər itkin düşüb.

İtkin düşmüş şəxslərin axtarışları davam etdirilir.



## Dünyada koronavirusdan ölənlərin sayı 460 min nəfəri ötüb

Son sutka ərzində dünyada koronavirus infeksiyasından ölənlərin sayı 5 min 66 nəfər artıb. Worldometer saytı xəbər verir ki, ötən gün COVID-19 xəstəliyinə 181 min nəfər yoluxub.

Məlumatına əsasən, dünyada koronavirusa yoluxanların sayı 8 milyon 767 min 138 nəfərə, infeksiya səbəbindən ölənlərin sayı isə 462 min 706 nəfərə çatıb. Eyni zamanda 4 milyon 628 min 625 xəstə sağalıb, müalicəsi davam edən 3 milyon 675 min 807 xəstədən 54 min 813-nün vəziyyəti ağır qiymətləndirilir.

ABŞ-da koronavirusa yoluxanların sayı 2 milyon 297 min nəfəri keçib. Bu göstəriciyə görə, sonrakı yerlərdə Braziliya (1 milyon 38 min 568), Rusiya (569 min 63), Hindistan (396 min 182), Böyük Britaniya (301 min 815), İspaniya (292 min 655), Peru (247 min 925) və İtaliya (238 min 11) gəlir. Birləşmiş Ştatlar COVID-19 xəstəliyindən ölənlərin sayına görə də dünya lideridir - 121 min 407 nəfər. İlk beşliyə daxil olan Braziliyada 49 min 90, Birləşmiş Krallıqda 42 min 461, İtaliyada 34 min 561, Fransada isə 29 min 617 nəfər koronavirus səbəbindən həyatını itirib.

# İtkin düşmüş azyaşlılarda hər hansı xəsarət izi və zorakılıq əlamətləri aşkar edilməyib

İyunun 19-da axşam saatlarında paytaxt sakinləri 2004-cü il təvəllüdlü Alamə Kərimovanın, 2006-cı il təvəllüdlü İlahə Ələsgərovanın və 2010-cu il təvəllüdlü Səkinə Ələsgərovanın qonaq getdikləri Masallı rayonunun Şərəfə kəndi ərazisində itkin düşmələri ilə bağlı valideynləri tərəfindən hüquq mühafizə orqanlarına müraciət daxil olub.

Baş Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, araşdırma zamanı azyaşlıların qonaq getdikləri Masallı rayonunun Şərəfə kəndindən Bakıya qayıtmaq qərarına gəldikləri və bu məqsədlə yola çıxaraq paytaxt istiqamətinə gedən "KamAZ" markalı yük avtomobilinə mindikləri məlum olub. Azyaşlılar paytaxta yaxınlaşarkən gecə 3 radələrində Salyan rayonu ərazisindəki polis postlarının birində aşkarlanaraq hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən valideynlərinə sağ-salamat təhvil veriliblər.

İtkin düşmüş şəxslərdə hər hansı xəsarət və ya xəsarət izi, o cümlədən zorakılıq əlamətləri aşkarlanmayıb.

***AZƏRTAC***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının Birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor

**HÜSEYN HƏŞİMLİNİN**

vəfatından kədərləndiyini bildirir, Turxan Həşimliyə və bütün Həşimlilər ailəsinə dərin hüznlə başsağlığı verir.

Yardımlı rayonu ağsaqqalları adından Cavanşir Babayev Naxçıvan MR Nehrəm qəsəbəsinin ağsaqqalı Həsən Abdullayevə və ailəsinə əzizləri

**ZÜMRÜD XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7407
Sifariş 1541
Qiyməti 40 qəpik